# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Bu ay əfv Sərəncamı gözlənilirmi?



4

SƏS
№ 086 (7254)
20 may 2025-ci il.
Qiymәti 60 qәpik

## Müasir və qlobal çağırışlara uyğun milli inkişaf strategiyası



2

# Türkiyənin beynəlxalq miqyasda çəkisi və APARICI VASİTƏÇİLİK



14

## Arılar və ekosistem: əgər nəsilləri kəsilsə...



15

## Milli mətbuat 150: janr mətbuatın "geyimidir"



11

## Sosial şəbəkədən psixotron terror: Biz kimə və niyə uduzuruq?



5

## "Azərbaycan və İran iqtisadi əməkdaşlığı gücləndirməlidir"




5

## Azərbaycan deyəndə qələbələrin yaşandığı dövlət yada düşür



10





# Müasir və qlobal çağırışlara uyğun milli inkişaf strategiyası

*Prezident İlham Əliyev: "Bizim gücümüzün mənbəyi Azərbaycan xalqıdır və güclü iqtisadiyyatdır"*






***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müdrik və uzaqgörən inkişaf strategiyası nəticəsində son 21 ildə dayanıqlı və davamlı iqtisadi inkişafa nail olan, dünyadakı nüfuzu durmadan artan, regionun siyasi, iqtisadi və mədəni mərkəzinə çevrilən ölkəmiz bu gün müəyyən edilmiş hədəflərə doğru qətiyyətli addımlar atır. Ötən hər il bütün sahələrdə əldə olunan böyük uğurlarla tarixə düşür.***



Bu nailiyyətlərin əldə edilməsində müstəsna rolu olan dövlət proqramları regionların iqtisadi potensialının əhəmiyyətli dərəcədə artmasına, infrastruktur təminatının, kommunal xidmətlərin keyfiyyətinin daha da yaxşılaşmasına, müasir müəssisələrin açılmasına səbəb olaraq, Azərbaycanın bütün bölgələrində dinamik tərəqqi yaşanan bir ölkəyə çevrilib. Ümummilli Lideri Heydər Əliyevin inkişaf strategiyasından qaynaqlanan, hər bir vətəndaşın rifahının davamlı olaraq yüksəlməsinə yönələn uzaqgörən, sistemli və qətiyyətli siyasət nəticəsində regionların inkişafının daha da sürətlənməsi təmin edilmişdir.

Dinamik iqtisadi inkişafı və beynəlxalq münasibətlər sistemində nüfuzlu mövqeyi ilə seçilən, öz ərazi bütövlüyünü, suverenliyini, ədaləti və beynəlxalq hüququ təmin etmiş qalib dövlət olan Azərbaycan beynəlxalq səviyyədə tanınan ərazilərimizi Ermənistanın 30 ilə yaxın davam edən işğalından azad etdi. Cənab Prezidentin qeyd etdiyi kimi, ”Bundan sonra əsrlər boyu Azərbaycan xalqı bu Qələbəni öz ürəyində, qəlbində yaşadacaq. Çoxəsrlik Azərbaycan tarixində buna oxşar parlaq Qələbə və mütləq Qələbə olmamışdır”.

## İQTİSADİYYAT VƏ SOSİAL HƏYAT SAHƏLƏRİNDƏ ƏLDƏ OLUNMUŞ UĞURLAR

Azərbaycanın 2030-cu ilədək Milli Prioritetlərində və 2022-2026-cı illər üzrə sosial-iqtisadi inkişaf Strategiyasında hədəflənən nəticələrə və sağlam prinsiplərə əsaslanmaqla gələcəkdə qeyri-neft iqtisadiyyatını daha da inkişaf etdirmək, insan kapitalının inkişafı nəticəsində dünya iqtisadiyyatında ölkənin mövqeyini gücləndirmək, daha yuxarı gəlirli ölkələr qrupuna daxil olmaq hədəflənir.

Paytaxtla regionlar arasında inkişaf fərqini aradan qaldırmağa hesablanmış Regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramları bölgələrdə infrastrukturun yenilənməsi, rayonların simasının əhəmiyyətli dərəcədə müasirləşməsində mühüm rol oynayıb. Bölgələrdə istehsal müəssisələrinin dirçəlişi və yeni sənaye obyektlərinin yaradılması, yerli resurslardan istifadənin səmərəliliyinin artırılması, aqrar sektorun müxtəlif dəstək mexanizmləri və innovativ üsullarla inkişaf etdirilməsi, müasir infrastrukturun, yeni iş yerlərinin yaradılması dövlət proqramlarının reallaşdırılmasında əsas nailiyyətlər sırasında qeyd edilməlidir.

Dövlətimizin başçısı rayonlara hər səfərində yeni obyektlərin açılışlarında və təməlqoyma mərasimlərində iştirak edir, görülən və həyata keçiriləcək işlərlə tanış olur, tapşırıq və tövsiyələrini verir. Bu səfərlərdə dinamika və balans gözlənilir. Belə ki, işğaldan azad olunmuş ərazilərin bərpa və yenidən qurulmasının prioritet elan edilməsinə baxmayaraq, ölkəmizin digər şəhər və rayonlarının inkişafı da diqqətdən kənarda qalmır. Biz bunu son olaraq Prezident İlham Əliyevin Lənkəran, Neftçala, Hacıqabul, Gəncə, Qəbələyə və s. rayonlara səfərləri zamanı da şahidi olduq. Bu səfərlər zamanı açılışı keçirilən və ya təməli qoyulan obyektlərin sayı, həmçinin onların əhəmiyyəti və ölkənin sosial-iqtisadi inkişafında tutduğu yer bölgələrə diqqət və qayğının bariz təzahürüdür.

Güclü iqtisadiyyat Azərbaycanın milli maraqlara uyğun siyasət aparmasının təminatçısı, ölkəmizin regionda və dünyada söz sahibi, bütün qlobal əhəmiyyətli nəqliyyat və enerji layihələrinin təşəbbüskarı və iştirakçısı olmasının açarıdır.

***Ardı Səh. 3***

Əvvəli-Səh-2

Prezident İlham Əliyevin rəhbərliyi ilə iqtisadiyyat və sosial həyat sahələrində əldə olunmuş uğurlar Azərbaycanın inkişaf salnaməsinin parlaq səhifələrindən biridir. Beləliklə, Ümummilli Lider Heydər Əliyevin müəllifi olduğu və Prezident İlham Əliyevin yeni müasir və qlobal çağırışlara uyğun yüksək səviyyədə davam etdirdiyi müdrik və uzaqgörən milli inkişaf strategiyası son 21 ildə Azərbaycanın böyük tarixi uğurlara, möhtəşəm Zəfərə, eyni zamanda mühüm sosial irəliləyişlərə nail olmasını təmin edib. Bu müdrik və uzaqgörən siyasət bundan sonra da ölkəmizi dinamik inkişaf yolunda hər zaman qələbələrə, zirvələrə doğru aparacaq.

### 400-DƏN ARTIQ DAİMİ İŞ YERİ

Azad edilmiş torpaqların dirçəlişi və reinteqrasiyası ümumilikdə ölkənin iqtisadi potensialının artmasına geniş imkanlar vəd edir.



şəhərciyin layihələndirilməsi nəzərdə tutulub. Qarabağın hava qapısı adlandırılan Füzuli Beynəlxalq Hava Limanı ən müasir səviyyədə inşa olunub və istənilən hava gəmisini qəbul etmək imkanı var. 2021-ci ildə istifadəyə verilən hava limanı rekord müddətdə - təxminən 9 aya tikilib. Füzuli Beynəlxalq Hava Limanı bu gün təkcə nəqliyyat qovşağı deyil, həm də Qarabağ regionunun əlçatanlıq və inkişaf simvoludur. Qarabağın hava qapısı olan Füzuli Beynəlxalq Aeroportu bölgənin iqtisadi, siyasi və mədəni həyatında mühüm rol oynayan nəqliyyat-logistika mərkəzinə çevrilməkdədir. Füzuli şəhərində yaşayış məhəlləsi salınıb və artıq keçmiş məcburi köçkünlər doğma yurdlarına qayıdırlar.

Yeni salınan şəhərdə Özbəkistan Prezidenti Şavkat Mirziyoyev tərəfindən özbək xalqı adından hədiyyə olaraq Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəb inşa edilib və təhsil ocağı 960 şagird yerlikdir.

# Müasir və qlobal çağırışlara uyğun milli inkişaf strategiyası





"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramması"nın uğurla icrası bu baxımdan böyük önəm daşıyır. Bölgədə yeni istehsal müəssisələrinin qurulması, məşğulluğun təmin olunması məqsədilə buraya yerli və xarici investorların cəlbi istiqamətində dəstək tədbirləri xüsusi qeyd edilməlidir. Bölgədə fəaliyyət göstərən müəssisələr üçün əlverişli investisiya mühiti yaradılıb. İşğaldan azad edilmiş ərazilərdə istehsal fəaliyyəti ilə məşğul olan rezidentlər üçün idxal olunan texnika, texnoloji avadanlıq və qurğular, habelə xammal və materiallar ƏDV və gömrük rüsumlarından azad edilib. Regionda fəaliyyət göstərən sahibkarlıq subyektləri mənfəət (gəlir), torpaq, əmlak və sadələşdirilmiş vergidən də azad olunub. Qlobal iqtisadiyyatda "yaşıllaşma və karbonsuzlaşma" meylləri qeyri-resurs iqtisadiyyatının inkişafı üçün imkanlar yaradır. Bu baxımdan, Qarabağ və Şərqi Zəngəzurun əhəmiyyətli potensialı var və bu, xarici investorların marağını cəlb edir. Artıq bu sahədə xarici investisiyalı müəssisələrin yaradılması ilə bağlı addımlar atılıb.

İşğaldan azad olunan Ağdam rayonunda iqtisadiyyatın, yerli istehsalın inkişafı məqsədilə icra olunan layihələrdən biri Ağdam Sənaye Parkıdır. Prezident İlham Əliyevin 2021-ci il 28 may tarixli Fərmanına əsasən yaradılan sənaye parkı 190 hektar ərazini əhatə edir. Parkın yaradılmasında məqsəd işğaldan azad edilən ərazilərin dirçəldilməsi, Qarabağın sənaye potensialının reallaşdırılması, sahibkarlığın dəstəklənməsi, əhalinin istehsal sahəsində məşğulluğunun artırılmasıdır. Sənaye parkının prioritet istiqamətləri kimi tikinti materiallarının istehsalı, kənd təsərrüfatı məhsullarının qablaşdırılması, meyvə-tərəvəz konservləri, ət və süd məhsulları, yem, gübrə istehsalı və emalı, eyni zamanda, xidmət sahələrinin, soyuducu kameraların və s. təşkili müəyyənləşdirilib. Parkda "BAFCO İnvest" Məhdud Məsuliyyətli Cəmiyyətinin müxtəlif təyinatlı ayaqqabıların, "Eel Electric" Məhdud Məsuliyyətli Cəmiyyətinin elektrik paylayıcı avadanlıqların, elektrik yuvalarının və beton yarımstansiyalarının, "Rail Trans Service" Məhdud Məsuliyyətli Cəmiyyətinin avtomatlaşdırma və telemexanika sistemlərinin, "Mister Decor" Məhdud Məsuliyyətli Cəmiyyətinin divar kağızları, "Metkons" Məhdud Məsuliyyətli Cəmiyyətinin havalandırma, yanğınsöndürmə avadanlıqları və metal məmulatları, "Prof-Dam" Məhdud Məsuliyyətli Cəmiyyətinin dam örtükləri istehsalı zavodları fəaliyyət göstərir. Fəaliyyətə başlayan yeni müəssisələr tərəfindən Ağdam Sənaye Parkına, ümumilikdə, 35 milyon manatdan çox investisiya yatırılıb, 400-dən artıq daimi iş yeri yaradılıb.

### 2 MƏRHƏLƏ ÜZRƏ 425 FƏRDİ EV

Birinci Qarabağ müharibəsində Ermənistan silahlı qüvvələri tərəfindən 1993-cü il iyulun 23-də işğal olunmuş Sarıcalı kəndi işğal dövründə viran qoyularaq xarabalığa çevrilmişdi. Burada evlərlə yanaşı, məktəb, uşaq bağçası, səhiyyə, ticarət, iaşə obyektləri də vəhşicəsinə məhv edilmişdi. Vətən müharibəsində Ordumuzun şanlı Qələbəsindən sonra üçtərəfli Bəyanata əsasən, Ağdam rayonu noyabrın 20-də Azərbaycana qaytarılıb. Sarıcalı kəndi işğaldan azad edildikdən sonra burada azərbaycanlılara aid kütləvi məzarlıq aşkarlanıb. İşğaldan əvvəl kənddə 239 ailə, ümumilikdə, 1024 nəfər əhali yaşayıb. Ağdam şəhərinin mərkəzindən 6 kilometr məsafədə yerləşən bu kəndin təməlini 2022-ci il oktyabrın 4-də Prezident İlham Əliyev qoyub. Sarıcalı kəndi 1873 nəfər (425 ailə) əhali üçün planlaşdırılıb. Layihələndirilən ümumi ərazi 123 hektardan çoxdur. Ümumilikdə kənddə 2 mərhələ üzrə 425 fərdi evin inşası nəzərdə tutulub. Ağdam Dəmir Yolu və Avtovağzal Kompleksinin açılışı da görülən işlər sırasındadır. Ağdamın müasir şəhər statusuna uyğun inkişafına xidmət edən strateji infrastruktur layihəsi olan Ağdam Dəmir Yolu və Avtovağzal Kompleksi uğurlu layihədir. Dəmir yolu vağzalı gündəlik 800-1000 nəfər sərnişinin daşınmasına imkan verəcək. Avtovağzal isə gündəlik 1300-1500 nəfər sərnişinə xidmət edəcək. Kompleks vahid nəqliyyat qovşağı kimi fəaliyyət göstərəcək. Ərazisi 8 hektara yaxın olan bu infrastruktur obyektində bütün zəruri otaqlar, həmçinin gözləmə zalları, bilet kassaları, kitabxana, mağazalar, əyləncə zonaları, restoran və istirahət guşələri yaradılıb.

### QARABAĞ REGİONUNUN ƏLÇATANLIQ VƏ İNKİŞAF SİMVOLU

Ermənistanın 30 ilə yaxın işğal altında saxladığı Füzulidə də quruculuq-tikinti işləri davam etdirilir. 30 illik işğal dövründə digər ərazilərimiz kimi, Füzuli şəhəri də talanıb, viran qoyulub. Bütün evlər, sosial obyektlər dağıdılıb, təsərrüfatlar məhv edilib.

İşğaldan azad olunan Füzuli də yenidən qurulur. Azərbaycan və Belarus arasında 2024-cü il oktyabrın 3-də imzalanmış sənədlərdə Ağdam rayonunda kənd təsərrüfatı istehsalının inkişafı, rayonun Qızıl Kəngərli kəndində aqro-

Füzuli şəhərində inşa olunan Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzi isə qardaş qazax xalqının hədiyyəsidir. İkimərtəbəli binada 600 uşağın bir neçə növbədə məktəbdənkənar təhsil alması üçün hər cür şərait yaradılıb. Mərkəzdə IT-startaplara və Azərbaycanın milli mədəniyyətinə, o cümlədən xalçaçılıq sənətinə xüsusi diqqət yetirilir.

### QARABAĞIN TACI

Şuşa şəhəri tarixi siması və mədəni irsi qorunub saxlanılmaqla bərpa olunur, doğma sakinlərinə yenidən qucaq açır. İndiyədək Şuşaya 376 ailə, ümumilikdə 1409 nəfərdən artıq keçmiş məcburi köçkün qayıdıb.

Qeyd edək ki, Şuşada 450 mənzildən ibarət 23 bina sakinlərin istifadəsinə verilib. Növbəti mərhələdə daha üç layihənin icrası nəzərdə tutulur. Ümumilikdə yaşayış kompleksində 274 mənzilin inşası planlaşdırılır. Binalarda bir, iki, üç, dörd və beşotaqlı mənzillər olacaq. Yaşayış kompleksinin ərazisində zəruri sosial infrastruktur yaradılacaq.

Şuşa Müalicə-Sağlamlıq Mərkəzi istifadəyə verilib. Altı korpusdan ibarət olan mərkəz 90 çarpayılıqdır. Burada terapiya, pediatriya, cərrahiyyə və digər şöbələr fəaliyyət göstərəcək. Şuşa Müalicə-Sağlamlıq Mərkəzi müasir standartlara cavab verən tibbi avadanlıq, o cümlədən kompüter tomoqrafiyası, rəqəmsal teleskopik rentgen, rəqəmsal stasionar USM cihazları ilə təchiz olunub. Bunlar isə öz növbəsində Mərkəzə müraciət edənlərin müayinə və müalicəsini yüksək səviyyədə aparmağa geniş imkanlar yaradır. Bu gün Qarabağ və Şərqi Zəngəzur yeni inkişaf dövrünü yaşayır. İşğaldan azad olunan ərazilərdə böyük abadlıq-quruculuq işləri ardıcıl olaraq davam etdirilir. Göründüyü kimi, Prezident İlham Əliyev xalqımızın həyatında böyük dəyişikliklər yaradan tarixi vəzifələrin həyata keçirilməsi yükünü və məsuliyyətini daşıyaraq milli maraqları ifadə edən siyasət həyata keçirir. Dövlət başçısının çıxışlarının birində vurğuladığı kimi, "Bizim gücümüzün mənbəyi Azərbaycan xalqıdır və güclü iqtisadiyyatdır".

***Zümrüd BAYRAMOVA***

# Azərbaycanla İspaniya arasında mühüm əməkdaşlıq mövcuddur



## Milli Məclisin sədri İspaniya Krallığı Senatının sədri ilə görüşüb



Milli Məclisin sədri Sahibə Qafarova İspaniya Krallığına rəsmi səfəri çərçivəsində həmin ölkə Senatının sədri Pedro Rollanla görüşüb. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, görüş zamanı Senat sədri Pedro Rollan ölkələrimiz arasında münasibətlərin daha da genişləndirilməsində maraqlı olduqlarını söyləyib. O, Senatın parlamentlər arasında əlaqələrin genişləndirilməsinə böyük əhəmiyyət verdiyini, eyni zamanda, hökumətlər arasında əməkdaşlığı da dəstəkləməyə hazır olduğunu bildirib.

Senatın sədri Azərbaycanın iqtisadi inkişaf göstəricilərini təqdir edərək, ispan şirkətlərinin ölkəmizdə, xüsusilə nəqliyyat sahəsində fəaliyyətini dəstəklədiklərini vurğulayıb. O, ölkələrimiz arasında enerji sahəsində əməkdaşlığı da yüksək qiymətləndirdiklərini söyləyib.

Milli Məclisin sədri Sahibə Qafarova öz növbəsində Azərbaycanla İspaniya arasında bir sıra sahələrdə əməkdaşlığın uğurlu inkişafını qeyd edib, o cümlədən iqtisadi sahədə müsbət əməkdaşlıq təcrübəsinin mövcud olduğunu söyləyib. Spiker Sahibə Qafarova bir sıra digər sahələrdə də əməkdaşlığın inkişafı üçün geniş imkanların olduğunu diqqətə çatdırıb.

Milli Məclisin sədri son dövrlərdə siyasi əlaqələrin inkişafında müsbət dinamikanın müşahidə olunduğunu bildirərək, İspaniya Krallığı Hökumətinin sədri Pedro Sançezin COP29 çərçivəsində ölkəmizə səfəri, Azərbaycan Prezidenti İlham Əliyevlə görüşü və həmin görüş zamanı əlaqələrin inkişafı üzrə əldə olunmuş razılıqları qeyd edib.

Senatın sədri də COP29-da iştirak etmək məqsədilə İspaniya Krallığı Hökumətinin sədri Pedro Sançezlə yanaşı, senat üzvlərinin də Azərbaycana səfər etdiklərini xatırladaraq, senatorların bu mühüm beynəlxalq tədbirin möhtəşəm təşkilini, eyni zamanda, Azərbaycan cəmiyyətinin dinamikliyini müşahidə etdiklərini söyləyib.



Söhbət zamanı spiker Sahibə Qafarova parlamentlər arasında əməkdaşlığın inkişafının əhəmiyyətini vurğulayıb. Bu çərçivədə parlament nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin önəmi diqqətə çatdırılıb. Görüşdə, eyni zamanda, parlament komitələri arasında əməkdaşlığın qurulması barədə də fikir mübadiləsi aparılıb.

Söhbət zamanı ölkələrimiz arasında humanitar sahədə əməkdaşlıq məsələləri də nəzərdən keçirilib. Təhsil, mədəniyyət sahəsində əlaqələrin xalqlarımızı bir-birinə daha da yaxınlaşdırdığı qeyd edilib. Pedro Rollan ölkəmizdə ispan dilinə göstərilən maraq və diqqətə görə təşəkkürünü ifadə edib.

Görüşdə multikultural dəyərlərə hörmətin Azərbaycanla İspaniyanı birləşdirən xüsusiyyətlərdən biri olduğu da vurğulanıb. Qeyd edək ki, görüşdən əvvəl spiker Sahibə Qafarova xatirə kitabını imzalayıb. Həmçinin Azərbaycan parlament nümayəndə heyəti İspaniya Krallığı Senatının plenar iclas zalı ilə tanış olub.

# Bu ay əfv Sərəncamı gözlənilirmi?





“Bu, həm Prezidentin, həm də ümumilikdə dövlətin humanist dəyərlərə sadiqliyinin bariz göstəricisidir. Belə ki, mənim 25 illik fəaliyyətim dövründə on minlərlə məhkum əfv sərəncamları əsasında azadlığa buraxılmışdır. Bu şəxslərin bir çoxuna ya cəzanın müəyyən hissəsi — yarısı, üçdə biri və ya üçdə ikisi — bağışlanmış, ya da cəza tamamilə ləğv olunmuşdur. Bu praktika dövlətin cinayətkarların islahına və onların cəmiyyətə reinteqrasiyasına yönəlmiş humanist siyasətinin mühüm təzahürüdür”. Bu sözləri SİA-ya açıqlamasında Azərbaycan xalq yazıçısı, 1995-2020-ci illərdə Əfv Komissiyasının üzvü olmuş Elmira Axundova deyib.



Onun sözlərinə görə, bizdən tez-tez soruşurlar ki, bu qədər şəxsin islah əmək müəssisələrindən, penitensiar sistemdən azad olunması cinayətkarlığın artmasına səbəb ola bilərmi? Mən hər zaman cavab verirdim ki, rəsmi statistika bunun əksini göstərir: “Həqiqətən də, əlimizdə çox maraqlı statistik göstəricilər mövcud idi. Yəqin ki, indi də vəziyyət dəyişməyib. Mən əvvəllər Əfv Komissiyasının üzvü kimi, 25 il bu sahədə fəaliyyət göstərmiş biri olaraq düşünürəm ki, həmin tendensiya bu gün də qüvvədədir. Belə ki, əfv sərəncamları ilə azadlığa buraxılan şəxslərin əksəriyyəti təkrar cinayət törədərək islah müəssisələrinə geri qayıtmırlar. Bu isə çox maraqlı və önəmli statistik faktdır. Onlar əsasən qatı cinayətkarlar kateqoriyasına aid edilmirlər. Qatı cinayət törətmiş, bir neçə dəfə məhkum olunmuş şəxslər isə, adətən, əfv aktlarına daxil edilmir və bu meyarlar çox ciddi şəkildə nəzərə alınır”.

Həmçinin E. Axundova bildirir ki, Əfv Komissiyası birbaşa əfv qərarı vermir, lakin müvafiq şəxslər barədə təkliflər hazırlayaraq təqdim edir: “Şübhəsiz ki, son qərar cənab Prezident tərəfindən qəbul edilir və sərəncam imzalanır. Komissiyanın əsas vəzifəsi isə hüquqi və mənəvi meyarlara uyğun olaraq namizədlərin siyahısını tərtib etməkdir. Təcrübə göstərir ki, iki və ya daha artıq dəfə ağır cinayət törətmiş şəxslər, ümumiyyətlə, əfv siyahılarına daxil edilmir. Əfvlə bağlı müraciətlərin qiymətləndirilməsində bir neçə əsas meyar mövcuddur.

Birincisi, məhkum şəxs özü yazılı ərizə ilə müraciət etməlidir. Bu ərizədə o, törətdiyi əmələ görə peşmanlığını ifadə etməli və islah yoluna qədəm qoyduğunu bildirməlidir. İkincisi, həmin şəxsin islah əmək müəssisəsindəki davranışını əks etdirən rəy – yəni xasiyyətnamə təqdim edilməlidir. Burada məhkumun cəza müddəti ərzində intizam qaydalarına əməl edib-etmədiyi, təkrar hüquqpozmaların olub-olmadığı və ümumi davranış göstəriciləri əks olunur. Üçüncüsü, əgər cinayət ehtiyatsızlıq nəticəsində – məsələn, yol-nəqliyyat hadisəsində ölümə səbəb olmuşsa – bu zaman zərərçəkmiş şəxsin yaxınlarının bağışlama ərizəsi xüsusi əhəmiyyət kəsb edir. Əgər mərhumun valideynləri, övladları və ya digər yaxınları yazılı şəkildə bağışladıqlarını bildirirlərsə, həmin hal Komissiya tərəfindən ciddi şəkildə nəzərə alınır”.

Eyni zamanda yazıçı qeyd edir ki, islah əmək müəssisələrindən əfv sərəncamı ilə azad edilən şəxslərin əksəriyyəti qatı cinayətkar deyillər: “Onlar islah yoluna qədəm qoymuş, davranışları ilə dəyişiklik nümayiş etdirmiş insanlardır və təcrübə göstərir ki, bu şəxslər çox nadir hallarda təkrar cinayət törədirlər. Məhz bu səbəbdən əfv sərəncamları humanist məzmun daşıyan mühüm hüquqi aktlar kimi qiymətləndirilir.

İnsan səhv edə bilər, bəzi hallarda cinayətlər ehtiyatsızlıq və ya psixoloji gərginlik şəraitində baş verə bilər. Belə hallarda şəxsin törətdiyi əmələ görə səmimi peşmanlıq ifadə etməsi və islah olunması nəzərə alınaraq, onun əfv olunması mümkündür. Qeyd etmək lazımdır ki, əfv fərdi hüquqi aktdır və amnistiyadan fərqli olaraq hər bir şəxs üzrə ayrıca qərar verilir. Lakin Azərbaycanda bu fərdi hüquqi institut zamanla mühüm tarixi və milli günlərlə bağlı bir ənənə formasını almışdır. Xüsusilə, ümummilli lider Heydər Əliyevin yubileyləri və digər əlamətdar bayramlar ərəfəsində əfv sərəncamlarının imzalanması artıq mütəmadi xarakter daşıyır.

Bu praktika həm dövlətin vətəndaşlara qayğısının, həm də ailələrin sosial rifahına verdiyi önəmin göstəricisidir. Ümid edirik ki, yaxın zamanda yeni əfv sərəncamı imzalanacaq və bir sıra islah olunmuş şəxslər azadlığa qovuşaraq ailələrinə geri dönəcəklər”- deyə o əlavə edib. Həmçinin mövzu ilə bağlı Konstitusiya Araşdırmalar Fondunun rəhbəri Əlimmməd Nuriyevdə fikirlərini bildirib. Onun sözlərinə görə, qarşıdan gələn 28 may respublika günü ilə əlaqədar olaraq Prezident tərəfindən əfv sərəncamı imzalanması ehtimal edilir.

***Xeyrənsə Piriyeva***

*“Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Albaniyaya işgüzar səfəri çərçivəsində Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta, Avropa Komissiyasının Prezidenti Ursula von der Lyayen, Albaniya Respublikasının Baş naziri Edi Rama, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və digər rəsmilərlə görüşləri dövlətimizin rəhbərinin beynəlxalq aləmdə böyük nüfuz sahibi olmasını təsdiq edir.” Bu sözləri SİA-ya verdiyi açıqlamasında Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri, millət vəkili Tahir Rzayev deyib.*



# “Dövlətimizin nüfuzu durmadan yüksəlir”

Komitə sədri xüsusilə qeyd edib ki, cənab İlham Əliyevin Tirana şəhərində “Avropa Şurası Birliyi” 6-cı Zirvə toplantısında və Zirvə toplantısının açılış plenar sessiyasında iştirakı, ən mötəbər dövlət rəhbəri olaraq qarşılanması bir daha göstərir ki, Azərbaycan dünyada söz sahibidir, öz yeri var, sayılır və qiymətləndirilir, çünki bu gün Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində başlıca rola malik bir ölkədir və ölkəmiz qitənin 10, o cümlədən Avropa İttifaqının 8 ölkəsinin enerji təminatında fərqlənir.

“Görüşlər zamanı Prezidentimiz Azərbaycanda yaradılmış nəqliyyat infrastrukturunun əhəmiyyətinə diqqəti cəlb etməklə, bu sahədə Orta Dəhlizin böyük rola malik olduğunu bildirdi və bu istiqamətdə yüklərin daşınma həcminin artdığını nəzərə çatdırdı.



**KOMİTƏ SƏDRİ ŞƏRH ETDİ**

Alternativ enerji mənbələrinin istifadəsi sahəsində dövlətlərin birgə səyləri çox vacibdir və dövlətimizin bu istiqamətdə səmərəli tədbirlər həyata keçirməsi təqdirəlayiqdir. Xəzər dənizi vasitəsilə Mərkəzi Asiyanın bərpaolunan enerji resurslarının ötürülməsi sahəsində imzalanmış Sazişlər buna nümunədir. Həm də “Cənub Qaz Dəhlizi” Məşvərət Şurası çərçivəsində aparılan müzakirələr gələcək əməkdaşlıq üçün yeni imkanlar yaradır.

Azərbaycan Prezidentinin qaldırdığı məsələlər və qarşıya qoyduğu vəzifələr dövlətimizin və xalqımızın milli maraqlarına əsaslanmaqla bərabər, həm də ölkələr arasında münasibətlərin yaxşılaşdırılmasına, sağlam əməkdaşlığa, sülhə, əminamanlığa və gələcək inkişafa hesablanmışdır. Məhz buna görə də tanınır, inkişaf edir, söz sahibinə çevrilirik və bundan qürur duyuruq”, deyə Tahir Rzayev bildirib.

***İnam Hacıyev***

# “Azərbaycan və İran iqtisadi əməkdaşlığı gücləndirməlidir”

***Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Tehran Dialoq Forumunda İranla əlaqələrin möhkəmləndirilməsinin zəruriliyini bəyan edib, regional sabitliyin prioritetini vurğulayıb və Ermənistanla sülh sazişi perspektivlərini şərh edib.***




SİA xəbər verir ki, bu barədə IRNA məlumat yayıb. Tehran dialoq forumunda çıxış edən Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev bildirib ki, Bakı regional əməkdaşlığın, xüsusilə iqtisadi sahədə genişləndirilməsinin tərəfdarıdır. “Azərbaycan və İran iqtisadi əməkdaşlığa malik olmalı və ikitərəfli münasibətləri gücləndirməlidir”, – deyə o vurğulayıb və əlavə edib ki, Azərbaycanın geosiyasi mövqeyi qonşularla aktiv qarşılıqlı əlaqə tələb edir. Onun sözlərinə görə, Bakı çoxtərəfli formatların inkişafını dəstəkləyir. “Avrasiya məkanında biz əlverişli mövqedəyik: bizdə Türkiyə, Rusiya və İran var. Biz çoxtərəfli əməkdaşlığı dəstəkləyirik və İslam Əməkdaşlıq Təşkilatına əhəmiyyət veririk, çünki həmrəylik prinsipi bizim üçün vacibdir”, – Hacıyev qeyd edib.

O həmçinin Azərbaycanın regional kommunikasiyalardakı rolunu vurğulayıb: “Bizim Qara dənizlə əlaqəmiz var və biz bundan istifadə edə bilərik. Biz birlikdə tərəfdaşlıq modelləri yarada və inkişaf etdirə bilərik”. Ermənistanla sülh sazişi perspektivlərinə toxunan Prezidentin köməkçisi bildirib: “İndi sülh üçün ən yaxşı və ən sabit zamandır. Biz yaxşı nəticələr əldə etmişik və mövzuların sərhədlərini müəyyən etmişik. İşğal vasitəsilə sərhədlər müəyyən edilmir”.

O əlavə edib ki, Azərbaycan Ermənistan Konstitusiyasından ərazi iddialarına aid bəndlərin çıxarılmasında israr edir. “Əgər Ermənistan konstitusiyasında Azərbaycana təhdid yaradan müddəalar varsa, onlar çıxarılmalıdır”, – o söyləyib. Hikmət Hacıyev həmçinin “xarici qüvvələrin öz baxışlarını qəbul etdirməyə çalışdıqlarını” qeyd edərək Bakı ilə İrəvanın “sabitliyə gedən yolu” özlərinin müəyyən etməli olduqlarını vurğulayıb.



**Elçin Bayramlı**

# Sosial şəbəkədən psixotron terror: Biz kimə və niyə uduzuruq?

***Mediada yayılan bu məlumat çoxlarının ürəyindən oldu. “İnsan alverinin təbliği ilə məşğul olan 156 Teleqram, Tiktok və İnstaqram kanalı bağlanıb. 2024-cü ildə insan alveri, əxlaqsızlıq yuvaları saxlamaq, yetkinlik yaşına çatmayanları ictimai mənəviyyata zidd əməllərə cəlb etmə, pornoqrafik materialları yaymaya görə 30 təqsirləndirilən şəxs yerli axtarışda olub, onlardan 16 nəfər, o cümlədən insan alverinə görə 3 nəfər saxlanılıb.”***

Bu sahədə vəziyyət artlq dözülməz hala çatıb və izin müddətdir ictimai xadimlər davamlı şəkildə dövləti ciddi tədbirlər görməyə çağırır. Sosial şəbəkələrdə artıq real cinayət məkanına çevrilib, burada nəzarətsizlik və özbaşınalıq üçün hər cür imkanlar va və bəziləri bu imkanlardan necə lazımdır bəhrələnirlər. Bəziləri isə sosial şəbəkədə “ulduz” olublar və həinki məşhurluq əldə ediblər, hətta apardıqları əxlaqsızlıq təbliğatına görə yaxşı pul da qazanırlar.

Bütövlükdə götürdükdə, belə adamlara marağın olması, lüks həyat yaşamaları inkar olunmaz faktdır. Maraqlıdır ki, bu cür adamlar qısa zamanda fenomenə çevrilirlər. Onların Tik Tok, İnstagram, Yutub və digər platformalarda açdıqları canlı yayımlara minlərlə insan qoşulur. Bunların bəzilərinin 3-cü cins nümayəndəsi olduğu bəllidir. Belələrinə pul hədiyyələri göndərilir, üstəlik onlar baxış sayından və reklamdan da apul qazanırlar.

Belə adamların fenomenə çevrilməsinin səbəbi nədir? Fikrimcə, belə halların sayının artmasının iki əsas səbəbi var. Birincisi, bioloji terrordur. GMO və hormonal balansı dəyişən qidalar, bir sıra psixtrop dərmanlar, narkotik maddələr və s. Bunlar şüuru, psixologiyanı dəyişdirə bilir. İkincisi isə mənəvi-psixoloji deqradasiyadır. Bu da müasirlik adı altında biabırçı həyat tərzini təbliğ etmək, bütün anormallıqları normal göstərməkdir. Bunun üçün qlobal fondlardan yüz milyardlarla vəsait sərf olunur. Belələrinin həyat tərzini nümayiş etdirərək, gəncləri həvəsləndirməyə çalışırlar. Bütün dünyada belədir. Onların arxalarında imkanlı, vəzifəli şəxslər olur, hər cür şərait yaradılır. Onlara biznesdə şərait, şou-biznesdə imkan yaradır, televiziyalarda təbliğ edirlər.

Bir çox ölkələrdə belələrinə qarşı həm dövlət, həm ictimaiyyət tərəfindən ciddi müqavimət göstərilir. Təəssüf ki, bizdə laqeydlik psixologiyası və cəzasızlıq mühitidir. Əksinə, onlara yüksək səviyyədə şərait yaradılır. Məsələn, mənəvi dəyərlərlə bağlı nəsə yazsaq, yüzlərlə, minlərlə adam bizi sosial şəbəkələrdə təhqir etməyə, gözdən salmağa və şər atmağa başlayacaqlar. Onların müəyyən vəzifəli, tanınmış şəxslərlə bərabər beynəlxalq təşkilatlardan da dəstəkləri var.

Artıq anormallıqların normallaşdırılması cəmiyyətə qəbul etdirilir. Tədricən, hiss olunmadan . Təəssüf ki, bizdə buna qarşı müqavimət reaksiyası mövcud deyil. Baxmayaraq ki, biz Şərq ölkəsiyik, türk xalqıyıq, özümüzü müsəlman hesab edirik, amma əxlaqsızlığın təbliğinə qarşı müqavimət göstərmirik. Bu biabırçılıqdır!

Bunlar mütəşəkkil təşkilatlanmış qruplardır. Onlara milyardlarla vəsait ayrılır, layihələr verilir, filmlər, seriallar çəkilir, təşkilatlar və hərəkatlar yaradılır. Bir sözlə, qlobal bir miqyasda iş gedir. Bu baxımdan da dövlətlərin özünüqoruma mexanizmi olmalıdır. Çünki bu, milli genefondun məhv edilməsinə, millətin pozğun kütləyə çevrilməsinə gətirə biləcək bir təhlükədir.

“Müasirlik”, “avropalaşaq”, “inkişaf edək” adı altında bütün dəyərlərimizi çökdürüblər. Ailə dəyərlərimizi, böyük-kiçik dəyərlərimizi məhv etdilər, uşaqları da zombi kimi böyüdürük. Təəssüf ki, nə dövlət, nə də cəmiyyət olaraq bunlarla mübarizə aparmaq əzmində deyilik. Acınacaqlı vəziyyətdəyik!

Bunun sonu yaxşı nəticə verməyəcək. Biz cəmiyyət olaraq hələ də təhlükənin fərqində deyilik. Prosesin hara getdiyini, nələrə gətirib çıxardığını anlamırıq. Biz hələ yuxudayıq, ayılanda çox gec olacaq. Əgər indi tədbir görməsək, tezliklə bunlar çoxluğa çevriləcək. Ondan sonra ümumiyyətlə bunun qarşısını almaq mümkün olmayacaq və normal insanlar azlıqda qalacaq. Azlıq isə çoxluğa tabedir. Bu gedişlə bizə qaydaları da, şərtləri də onlar qoyacaq. Onsuz da dəyərlərimizin çoxunu itirmişik, yaxın zamanda qalanların da sonuna çıxacaqlar. Ayılmaq vaxtıdır!

# Moskva, Tirana və “Paşinyan xəyanəti”

***Ermənistanın baş naziri Nikol Paşinyan Azərbaycan Prezidentinin Moskvada keçirilən paradda iştirak etməyəcəyi xəbərini alam kimi Rusiyaya tələsik səfər etməsi bəzi suallar yaradıb. Rusiyadan imtina edən və özünü Avropada tapmağa çalışan rəsmi İrəvan indi Moskvadan nə istəyir? Geri dönüş İrəvana nə qazandıracaq? Avropanın reaksiyası nə olacaq? Bütün bu suallara erməni mətbuatı aydınlıq gətirir.***



“Armenianreport” yazır ki, Kremlin göstərişi ilə hərəkət edənlər artıq “Paşinyan xəyanəti” mövzusunu təbliğ edirlər. Qeyd edilir ki, Albaniyanın paytaxtında keçirilən Avropa Siyasi Birliyinin (ASB) altıncı sammiti 47 Avropa ölkəsinin, o cümlədən Aİ ölkələrinin, eləcə də Avropa İttifaqının üzvü olmayan, lakin Avropa məkanında inteqrasiya və əməkdaşlıqda maraqlı olan ölkələrin liderlərini bir araya toplayıb. Ermənistanın baş naziri Nikol Paşinyanın bu forumda iştirakı düzgün addım idi.

Xüsusən də onun Qələbə paradında Moskvaya səfərindən sonra, bu, avropalı siyasətçilər baxımından tam başa düşülən deyildi. Artıq bir sıra Avropa mediası da bu məsələ ilə bağlı Paşinyanla bağlı tənqidi açıqlamalar verib. Yeri gəlmişkən, onlar Azərbaycan prezidenti İlham Əliyevin Moskvaya getmədiyini vurğulayıblar. Bir sözlə, ASB sammiti üçün Tiranaya səfər həm də Paşinyanın Moskva səfərinin mənfi təsirini bir növ yumşaltmaq baxımından əhəmiyyətli idi. Onu da qeyd etmək lazımdır ki, forumun əsas mövzusu Şərqi Avropada davam edən qeyri-sabitlik, enerji problemləri və artan geosiyasi risklər fonunda həm regional, həm də kontinental təhlükəsizlikdir. Bakı və Ankaranın “Zəngəzur dəhlizi” ilə bağlı getdikcə aktuallaşan planlarını nəzərə alsaq, Ermənistan bununla bağlı da söz demək istəyir.

Onu da xatırladaq ki, Avropa Siyasi Birliyi 2022-ci ildə Fransanın təşəbbüsü ilə yaradılıb. Ona görə də altıncı ASB forumunda Ermənistanın baş nazirinin iştirak etməməsi sadəcə olaraq mümkün deyildi. Düzdür, üç il əvvəldən İrəvan üçün çox da xoş xatirələr yaranmır. Məlum olduğu kimi, o vaxt Praqada ASB-nin ilk iclasında məlum bəyannamə qəbul edildi və ona əsasən, tərəflər - Ermənistan və Azərbaycan münasibətlərini 1945-ci il BMT Nizamnaməsi və 1991-ci il Alma-Ata Bəyannaməsi əsasında qurmaq niyyətində olduqlarını bəyan etdilər. Əslində, bu, Ermənistan tərəfindən rəsmi və yüksək səslə Qarabağdan imtina idi. Baş verənlər Rusiyanı şoka salıb. Ölkə Xarici İşlər Nazirliyinin rəhbəri Sergey Lavrov mütəmadi olaraq qeyd edir ki, hadisələrin bu cür inkişafı Kremldə hər kəsi dəhşətə gətirib.

Amma təbii ki, Kreml Ermənistandan qətiyyən narahat deyildi və bu gün də narahat deyil. Orada həmişə öz maraqlarının paradiqmasında yaşayıblar. İrəvan və Bakıya təzyiq imkanlarının itirilməsi Kremldə gözlənildiyi kimi, təəssüflə qarşılandı. Bu baxımdan Fransanın Ermənistanla Azərbaycan arasında sülh sazişinin imzalanmasını Rusiyanın regionumuzdan sıxışdırılması istiqamətində növbəti addım kimi qiymətləndirdiyi tamamilə açıq-aşkar görünür. Bu heyrətamizdir, lakin bu mənada Paris, Brüssel, London, Berlin, İrəvan və Bakının planları həqiqətən də üst-üstə düşür. Məhz buna görə də Rusiyayönümlü “beşinci kolon” Ermənistanda aktivləşib. Nəzarət etdikləri KİV-lər artıq Paşinyanın səfərini özlərinin adi hiyləsi ilə şərh edirlər. Bu cür manipulyasiyanın konkret nümunəsini deyək.

Sosial şəbəkələrdə Tiranada Paşinyanın İlham Əliyevi qəhvəyə dəvət etdiyini əks etdirən görüntülər yayılıb. Nəzakətli dəvətdən sonra nəzakətli cavab. Burada hansı sensasiya var? Heç bir şeydə. Amma Kremlin göstərişi ilə hərəkət edənlər artıq “Paşinyan xəyanəti” mövzusunu təbliğ edirlər. Onlar indi və yaxın günlərdə Paşinyanla İlham Əliyev arasında Tirandakı görüşün davam etdiyi hər saniyəni manipulyasiya edəcəklər. Ermənistan baş nazirinin orada bir sıra mühüm görüşlər keçirdiyini isə demirlər. Eləcə də Makron və fon der Leyenin Ermənistan və Azərbaycan arasında sülh müqaviləsinin imzalanması prosesinin sürətləndirilməsini qəti şəkildə dəstəkləməsi, bütün Cənubi Qafqaz üçün firavanlıq və sərmayə vəd edir. Bu, Rusiyanın qətiyyən istəmədiyi bir şeydir.

Moskva fəal şəkildə Cənubi Osetiya və Abxaziyanı öz tərkibinə daxil etməyi hədəfləyir. O, onilliklər ərzində Ukraynaya qarşı döyüşmək niyyətindədir. Rusiya hamını qan içində boğmağa hazırdır - özünün və başqalarının. O cümlədən Cənubi Qafqazda. Çünki Kreml anlayır ki, Ermənistan-Türkiyə və Ermənistan-Azərbaycan münasibətlərinin normallaşmasının ardınca nələr gələcək. Bu, onun, Rusiyanın ən pis kabusudur. Və məhz bu həqiqətin dərk edilməsinə əsaslanaraq, indi baş verən hər şeyi dəyərləndirməliyik.

## Ermənistan bütün cəbhələrdə uduzur

Ermənistan rəhbərliyi, necə baxsan da, hər şeyin başladığı və inkişaf etdiyi anı əldən verib. İran İslam Respublikasının rəhbəri və digər iştirakçılar “Araz-2025” birgə təlimlərində iştirak etmək üçün Azərbaycana gəliblər. Üstəlik, bu təlimlərin Azərbaycanın Qarabağ iqtisadi rayonunda keçirildiyini vurğulamaq xüsusilə vacibdir. Ermənilər hesab edirlər ki, Bu da İran prezidenti Məsud Pezeşkiyanın Bakıya son rəsmi səfərinin nəticəsidir.

Bundan başqa, Bakıya 120 nəfərlik nümayəndə heyəti gəlib. Belə ki, İran prezidentini müşayiət edən iqtisadi nümayəndə heyətinə özəl sektorun nümayəndələri, İran-Azərbaycan parlament dostluq qrupunun üzvləri, həmçinin İranın dörd şimal-qərb əyalətinin valiləri daxil olub. Bakıda isə elan olundu ki, İran və Azərbaycan növbəti beş il ərzində ikitərəfli ticarət dövriyyəsini ildə 10 milyard dollara çatdırmağı qarşılarına məqsəd qoyublar. Amma təkcə bu deyil. "Biz qəti şəkildə inanırıq ki, Azərbaycan xalqının hüquqlarına hörmət edilməli və Qarabağ Azərbaycana məxsus olmalıdır. Qarabağ Azərbaycan ərazisinin ayrılmaz hissəsidir və biz buna hörmətlə yanaşırıq”, - M.Pezeşkian Azərbaycan Prezidenti İlham Əliyevlə görüşü zamanı deyib. Rəsmi Tehranın mövqeyində belə nəhəng transformasiya baş verib.

Ermənistan rəhbərliyi isə, necə baxsan, hər şeyin başladığı və inkişaf etdiyi anı əldən verib. Nəticədə bütün bunların nə ilə nəticələndiyini kənardan izləməyə məcburdur. Obyektiv səbəblərdən rəsmi Tehranın mövqeyinə təsir etmək imkanı artıq yoxdur. Ermənistan Rusiya-Azərbaycan münasibətlərində də eyni şeyi görür. Bəli, son illər iki ölkə arasında soyuq dövr yaşanır. Bəs Ermənistan bundan faydalana bilirmi? Xeyr. İlham Əliyevin Moskvadakı Qələbə Paradına qatılmaqdan imtina etməsi Kremlin qəzəbinə səbəb olduğu, aydındır. Lakin Nikol Paşinyanın orada olması belə Ermənistanın xeyrinə olmadı. Rusiya ölkəmizin baş nazirinə qarşı dərin şəxsi nifrət hiss etməkdə davam edir.

Bəli, Kreml Cənubi Osetiya və Abxaziyanı Rusiyaya birləşdirməyə can atır, eyni zamanda Ermənistanın baş naziri və prezidentinin kreslolarına sadiq adamlarını qoymağa çalışır. Onların Gürcüstanda da eyni planı var idi. Nəticədə Mixail Saakaşvili rütubətli zindanda dəmir barmaqlıqlar arxasında oturur. Gürcüstanın başında isə ölkəni Kremlin direktivlərinə tam uyğun idarə edən oliqarx Bidzina İvanişvilinin oyuncaqları dayanır.

Rusiya Ukrayna məsələsində də eyni şeyi istərdi. Ukraynanın dörd bölgəsinin ilhaqı, onun NATO-ya üzv olmaqdan imtinası, ordunun güclü tərksilah edilməsi və heç bir töhfə vermədən Rusiyaya qarşı sanksiyaların götürülməsi ilə yanaşı. Deməli, biz bütün bunları nəinki dərk etməliyik, həm də buna hazırlaşmalıyıq. Ukraynada müharibə başa çatdıqdan dərhal sonra. Bəli, belə çıxdı. Necə deyərlər: gizlənmədinsə, mənim günahım deyil.

Bu arada ABŞ prezidenti Donald Trampın administrasiyası Türkiyənin Rusiyadan S-400 sistemlərini almasından sonra 2020-ci ildə ona qarşı tətbiq etdiyi sanksiyaları yumşaldıb. Ərdoğanın bu məsələ ilə bağlı məmnunluqla ifadə etdiyi kimi, “NATO-nun iki ən böyük üzvü” Türkiyə ilə ABŞ arasında müdafiə sənayesi sahəsində əməkdaşlığa heç bir məhdudiyyət və ya maneə ola bilməz. Və dərhal Türkiyədən “salam” ünvanlandı. Yaxın 3-4 il ərzində “Zəngəzur dəhlizi” layihəsinin həyata keçirilməsi planlaşdırılır. “Anadolu”nun məlumatına görə, bunu Türkiyənin nəqliyyat və infrastruktur naziri Abdulkadir Uraloğlu deyib. Onun sözlərinə görə, “Zəngəzur dəhlizi” layihəsi Türkiyəni türk dünyası ilə birləşdirəcək: “Həm Azərbaycan, həm də Türkiyə layihənin həyata keçirilməsi istiqamətində işləri davam etdirir”, - deyə türkiyəli nazir qeyd edib.

Gördüyümüz kimi, Bakı və Ankara Ermənistanın fikrini eşitmək belə istəmirlər. Və xüsusilə əlamətdar olan odur ki, Nikol Paşinyan və Anna Akopyan Sünik bölgəsinə gediblər. Erməniləri düşündürən ən orjinal sual: Nikol-Anna cütlüyünün Türkiyə-Azərbaycan planının icrasına nəzarət etmək üçün ora getdiklərini necə güman etmək olmaz?! Ermənistanın baş nazirinin İlham Əliyevi Tiranada necə bir fincan qəhvəyə dəvət etdiyini gördük. Və sonra Paşinyan Azərbaycan Prezidentinə hesabat verdi. Bunlar bir reallıqdır.

***V.VƏLİYEV***





# Poetik fikir salnaməsinə yeni səhifələr yazan şair

***Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, Xalq şairi, Dövlət Mükafatı laureatı Rəsul Rza milli poetik fikir salnaməsinə yeni səhifələr yazan novator sənətkar kimi böyük şöhrət qazanmış, ana dilinin zənginliklərindən uğurla faydalanmışdır.***

"Poeziya zəhmət və ilhamdır" avtobioqrafik qeydlərində R.Rza öz tərcümeyi-halına nəzər salaraq belə yazırdı: "Deyilənə görə, mən 1910-cu ildə mayın 19-da anadan olmuşam. Deyilənə görə deyirəm, çünki bu tarix düzgün olmaya bilər. Anadan olduğum ili və günü babam əlyazması Quranın səhifələrindən birində qeyd edibmiş. Babamı dəfn edən zaman (mənim onda üç-dörd yaşım olardı) Quran yoxa çıxıb".

Uşaqlıq yaşlarından dövrü mətbuatla yaxından tanış olan R.Rzanın mənəvi tərbiyəsində bu amillərin mühüm rolu olmuşdur. O, uşaqlıqdan ədəbi söhbətlərin getdiyi bir ailədə tərbiyə almışdır. Şair hələ uşaqlıqdan Məhəmməd Füzulinin, Xurşidbanu Natəvanın, Mirzə Ələkbər Sabirin şeirlərini anasının dilindən eşitmişdi. "İndi yaddaşımın səhifələrini varaqladıqca mən bir daha inanıram ki, mənim könlümə şeirə olan məhəbbətimin ilk qığılcımlarını anam atmışdır. Anam məndə klassik poeziya xəzinəsinə, həm də xalq yaradıcılığına dərin hörmət hissi tərbiyə etmişdir", - deyə R.Rza yazırdı. 1925-ci ildə isə Gəncə Sənaye və Kənd Təsərrüfatı Texnikumuna daxil olmuş, ancaq təhsili yarımçıq qoyub bir neçə aydan sonra evə, anasının yanına qayıtmışdır. O, 1930-cu ildə Bakıya köçür və burada ədəbi aləmdə yaxşı tanınan Mikayıl Müşfiq, Süleyman Rüstəm, Mehdi Hüseyn, Səməd Vurğun, Mikayıl Rəfili, Əli Nazim, Mirzə İbrahimov və başqaları ilə yaxından tanış olur, onlarla bir cəbhədə yeni ədəbiyyatın yaradıcılıq və təşkilati vəzifələrinin həyata keçirilməsində bilavasitə yaxından iştirak edir. Onunla bağlı mənbələrdə o da qeyd olunur ki. R.Rza ilk şeirləri ilə mətbuatda çıxış etməyə başlayanda yeni, inqilabi bir ədəbi proses təzəcə formalaşırdı; bir tərəfdə təcrübəli yazıçılar, digər tərəfdə isə yeni yazıçılar nəsli fəaliyyət göstərirdi və qeyd olunmalıdır ki, yeni ədəbiyyat uğrunda mübarizə, bu ədəbiyyatın ideya-bədii prinsiplərini müdafiə və qızğın təbliğ etmək bu prosesin çox mühüm bir tərəfi idi.

### CƏBHƏ HƏYATININ ÇƏTİNLİKLƏRİNİ MƏNƏN YAŞAYAN ŞAİR

Dərc olunan ilk şeiri "Bu gün" idi. O zamandan başlayaraq öz dəst-xətti ilə poeziya alminə qədəm qoydu. 1941-ci ilin axırlarında şair bir qrup siyasi işçilərlə hərbi müxbir kimi Krıma gedir, Azərbaycan diviziyasında hərbi müxbir vəzifəsində çalışır, cəbhə qəzeti "Döyüşən Krım"da işləməyə başlayır. O, müxbir kimi tez-tez ön cəbhə xəttinə gedir, müharibəni bilavasitə müşahidə edir, cəbhə həyatının çətinliklərini mənən yaşayıb, bütün bunlar da şeirlərində öz təkrarsız ifadəsini tapırdı. Onun burada yazdığı ilk əsər "Bəxtiyar" şeri idi. Həmin dövrdə o, xalqın qəhrəmanlıq mübarizəsini, qələbəyə inamını, humanizmini əks etdirən əsərlər yaratmış, 1942-ci ildə "Vətən", "Ölməz qəhrəmanlar", 1943-cü ildə "İntiqam! İntiqam...", "Qəzəb və məhəbbət" və "Vəfa" adlı şeir, hekayə və oçerklər kitablarını nəşr etdirmişdir. Qələm dostunun yaradıcılığına yüksək qiymət verən Xalq şairi Səməd Vurğun o illərdə qeyd edirdi: "Rəsul Rza romantik bir qəlblə yazdığı "İntiqam" şeiri ilə insanları, yerləri və göyləri, dağları və daşları belə intiqama-faşist cəlladlarının başına od yağdırmağa çağırdı".

### GÜLLƏLƏR AÇILMASIN, AMANLI YA AMANSIZ

Onun fəlsəfi lirikası da diqqəti çəkəndir. R.Rzanın bu poeziyasında "Rənglər" silsiləsinin ayrıca yeri vardır. Silsilə ilk dəfə 1962-ci ildə "Azərbaycan" jurnalında dərc olmuşdur. Silsilənin bu nəşri 27 şeirdən ibarət idi və bu həcmdə şairin "Duyğular və düşüncələr" kitabına daxil edilmişdir. Silsilə dərhal ədəbi tənqiddə kəskin tənqidlə qarşılandı. Lakin şair bu tənqidlərdən geri çəkilmədi; bir daha silsiləyə qayıtdı. O, "Qırmızının ümid çaları", "Firuzəyi", "Qırmızının inam çaları", "Mavinin təsəlli çaları", "Sürməyi", "Saman sarısı" poetik mətnlərini yazdı və bu yeni şeirlər "Dözüm" kitabına daxil edildi. Bütövlükdə silsilə 33 şeirdən ibarətdir. Şeirlərində həyat sevgisi, həyatın lövhəsi var:



Rəsul Rza və Nigar Rəfibəyli.

Mən istəyirəm: buludlar ağlasın  
uşaqlar ağlamasın; analı ya anasız.  
Mən istəyirəm: güllər açılsın,  
güllələr açılmasın, amanlı ya amansız.  
Göz yaşı bulaq kimi axmasın  
dünyanın heç bir yerində.  
Hər şey insana baxsın.

Bakı kinostudiyasında ssenari şöbəsinin rəisi, Azərbaycan Dövlət Filarmoniyasının müdiri, Azərbaycan Sovet Yazıçıları İttifaqının sədri, Bakı kinostudiyasının müdiri, kinematoqrafiya idarəsində rəis, Azərbaycan SSR kinematoqrafiya naziri, Azərbaycan Sovet Ensiklopediyasının baş redaksiyasının baş redaktoru, Ümumdünya Sülhü Müdafiə Komitəsi Rəyasət Heyətinin üzvü, Afrika və Asiya Ölkələri Sovet Həmrəylik Komitəsi rəyasət heyətinin üzvü və respublika üzrə sədri, SSRİ Yazıçılar İttifaqı rəyasət heyətinin üzvü, "Novosti" Mətbuat Agentliyinin Azərbaycan şöbəsi idarəsinin sədri, Azərbaycan Respublikası Ali Sovetinin (VII çağırış) deputatı, Azərbaycan KP təftiş komissiyasının üzvü seçilmiş, Lenin və SSRİ Dövlət mükafatları komitəsinin üzvü olmuşdur.

Belə bir yaradıcılıq yolu keçən və ictimai fəaliyyəti ilə diqqətdə olan Rəsul Rza yarım əsrə yaxın dövr ərzində daim yüksək bədii dəyəri ilə seçilən çox sayda əsərlər yaratmış, eyni zamanda ölkənin ictimai və mədəni həyatında yaxından iştirak edərək, genişmiqyaslı dolğun fəaliyyəti ilə tanınmışdır.

***Nəzakət ƏLƏDDİNQIZI***

---



# ““Saxta xəbər” insanları çaşdırır və yanlış addımlar atmasını şərtləndirir”

**MEDİA EKSPERTİ DANIŞDI**

***“Rəqəmsal transformasiya, onlayn informasiya resurslarının inkişafı, sosial media platformalarının çoxalması yaşadığımız dövrdə informasiya axınını sürətləndirir.***

İnsanlar, hətta fərdi istəkləri olmasa belə, gün ərzində yüzlərlə informasiyanı eşidir, görürü və dinləyirlər. Təəssüf ki, gündəlik xəbər dövriyyəsi təkcə etibarlı, düzgün məlumatlardan ibarət deyil”. Bunu S A-ya açıqlamasında Mətbuat Şurası İdarə Heyətinin üzvü, media eksperti Müşfiq Ələsgərli deyib.

Onun sözlərinə görə, “Yanlış xəbər”, “saxta xəbər”, “dezinformasiya” da xəbər dövriyyəsində böyük paya malikdir: "Analitik mərkəzlər qeyd edirlər ki, “saxta xəbər”in qlobal informasiya dövriyyəsində çəkisi 45-80 faiz aralığında dəyişir və dünya üçün ən aktual problemlərindən birinə çevrilir. “Saxta xəbər” insanları çaşdırır, səhv qərarlar verməsini, yanlış addımlar atmasını şərtləndirir. Bu baxımdan “saxta xəbər”, “dezinformasiya” “dünya üçün yeni fəlakət” adlandırılır. Bu da bir faktdır ki, “saxta xəbər” təsadüfən yaranmır. Xüsusən, “saxta xəbər”in bir növü olan dezinformasiya şüurlu şəkildə istehsal edilir, konkret hədəflərə qarşı yönəldilir və onu istehsal edənlərin məkrli niyyətlərinin təmin edilməsi üçün istifadə olunur.

Rəqib dövlətlər bir-biri haqqında qəsdən saxtalaşdırılmış məlumatlar-dezinformasiyalar yaymaqla qarşı tərəfə zərər vura bilirlər. Bu baxımdan dezinformasiya termini müasir nəzəriyyələrdə “Hibrid müharibə”nin, yaxud, “Assimmetrik müharibə”nin elementi kimi təsvir edilir. Dezinformasiya həm də cəmiyyətin çaşdırılması, ictimai etimadsızlığın yaradılması üçün istifadə edilir. Təəssüf ki, sosial şəbəkə platformaları bu baxımdan geniş imkanlar yaradırlar. Onlar məkrli qüvvələrin əlində alətə çevrilərək, ictimai rəyin yanlış infortmasiyalarla yüklənməsində, yanlış istqamətə yönləndirilməsində rol alır. Bu cür halların qarşısını almaq üçün dünya dövlətləri müxtəlif tədbirlər görürlər. Çox saylı dövlətlərdə “dezinformasiyaya qarşı mübarizə haqqında” xüsusi qanunlar qəbul edirlər. Həmçinin, dezinformasiya ilə mübarizə üçün ixtisaslaşmış inzibati qurumlar yaradırlar”.

***Günel Fərzəliyeva***

# Şərq, yoxsa Qərb üslubunda evlənək?

**_Dünyada Şərq və Qərb insanlarının sivilizasiyaları, hadisələrə yanaşmaları hər zaman fərqli olub. Mədəniyyət Şərqdə yaransa da, mütəxəssislər bildirirlər ki, sonradan inkişaf edən Qərb bu xüsusda Şərqi xeyli üstələyib._**





Xüsusilə də, Qərb insanlarında qanuna, qaydalara münasibət xeyli dərəcədə fərqlidir. Eyni zamanda ailə dəyərləri də Şərq və Qərbdə fərqlənir. Gənclər necə evliliyə üstünlük verirlər? Şərq üslubunda, yoxsa Qərb üslubunda evlilik daha yaxşıdır? Mentalitet buna icazə verirmi? Cəmiyyətimizdə indi hansı üslub hökm sürür? SİA bu suallara cavab tapmaq üçün şəhər sakinlərinin fikirlərini öyrənib.

**Şəhər sakini Xalidə Nəcəfova:** "İndiki gənclərin Şərq üslubunda evlənməsi daha yaxşıdır ki, adət-ənənələr, xoş arzu, xoşniyyət hamıya nəsib olsun. Mən məsləhət görərdim ki, Şərqə üstünlük versinlər. Böyük-kiçiyə hörmət, ailəyə, ata-anaya hörmət ancaq Şərq üslubunda olur. Qərb üslubu hər yerdə var. İndi də sosial şəbəkələrdə, televiziyada rast gəlirik. Amma bir böyük kimi Qərbi məsləhət görməzdim".

**Şəhər sakini Aydan Mirzəyeva:** "Əlbəttə ki, Şərq üslubu daha uyğundur. Çünki bizim mentalitet bizi çox böyük problemlərdən qoruyur. Yəni belə olması insanların gələcəkdə yaşaya biləcəkləri xəstəlikləri də aradan qaldırır. İnsanlar bunları gözə almadan davranırlar. Bizim bilmədiyimiz, mentalitet hesab etdiyimiz şey gələcəkdəki problemlərin qarşısını alır".

**Şəhər sakini Zəhra Kazımlı:** "Bu məsələdə təkcə bir nəfərin fikirlərini nəzərə almaq olmaz. Mən də Şərq üslubunu üstün tutardım. Təbii ki, mentalitetimizi bütün adət-ənənələrimizlə birlikdə qəbul etmirəm. Bir neçə xəstəlikdən xilas olmağın yolu da mentalitet olaraq gördüyümüz şeydir. Mentaliteti tam olaraq pisləmək də olmaz. Həqiqətən də, bizi təhlükələrdən qoruyur. Amma Qərb üslubunun da yaxşı tərəfləri var. Dinə bağlı olmaq, təbii ki, yaxşıdır. Böyüklərin getdiyi yolları getmək yaxşı olsa da, pis tərəfləri də var. Gənclər arzu etdikləri nikahı edə bilmirlər, həyatı yaşaya bilmirlər. Qərb üslubunda bunlara imkan var. Ona görə də, Qərbin də müsbət tərəfləri var".

**Şəhər sakini Səbinə Rüstəmova:** "Məncə, hərənin öz düşüncəsi var. İnsanların özündən asılıdır. Burada nə Azərbaycan mentaliteti, nə də Qərb mentaliteti rol oynamır. Mənim üçün də heç bir fərqi yoxdur. Evlilik eynidir. Əsas odur ki, insanlar xoşbəxt olsunlar".

SORĞU

**Şəhər sakini Qəray İbrahimov:** "Öz üslubumuza üstünlük verilsə, daha yaxşıdır. Abırlı, həyalı üslub bizimkidir. Qərb başqa millətdir. Onlar başqa mentalitetdir. Uzağa getməyək, Rusiyanın özündə də belədir. Ən yaxşı özümüzdədir, abırlı və həyalıdır. Halhazırda cəmiyyətimiz bir az abırdan-həyadan çıxıb. Qərbə meyl artıb".

**Şəhər sakini Etimad Məmmədov:** "Mənim fikrimcə, əvvəlcə tanış olmalıdırlar, görməlidirlər ki, xasiyyətləri uyğun gəlir, yoxsa yox. Bir də məhəbbət olmalıdır. Məhəbbət də olmasa, dədə-baba üsulu olmalıdır. Valideyn seçir, evləndirir. Valideyn seçən evliliklərin 90%-i xoşbəxt olur. Ətini yesələr də, sümüyünü atmırlar. Ata-anadan qorxur, boşanmırlar. Biz belə görmüşük. Hər ölkənin özünün fundamenti var. Böyüklər belə məsləhət görürsə, ondan zərər gəlməz. Həm xeyir-dua, həm də yaşlılar bizdən ağıllıdır. Baxırlar ki, kimin qızı, kimin oğludur. Bir də məhəbbət olmalıdır. İlk baxışdan sevgi də var. Belə olan şəkildə kömək edib evləndirmək lazımdır".

**Şəhər sakini Nicat Ağazadə:** "Məncə, ən çox Qərbə üstünlük verilməlidir. Çünki ilk olaraq cütlüklər tanış olmalıdırlar, sonra da alındıra bilirlərsə, davam etsinlər. Alınmasa, yolun yarısında ayrılsınlar. Ailələr uşaqlarını tanış edir, evləndirir, yola getmirlər, sonra da boşanırlar. Məncə, Qərb üslubu daha yaxşıdır".

**Şəhər sakini Mehdi Cabbarov:** "Məncə, Şərq üslubu yaxşıdır. İnsanlar bir-birini tanımalıdırlar. Əgər uyğundurlarsa, o zaman evlənsinlər. Çünki yaşayıb evlənmək, məncə, düzgün deyil. Əslində hərənin bir fikri var, hörmətlə yanaşılmalıdır. Amma mən olsam, birinci görüb, tanıyıb, sonra ailələrin də məsləhətindən sonra evlənərəm. Ailələr danışandan sonra nikah, sonra da toy olur. Mən Qərb üslubuna da hörmətlə yanaşıram. Kim necə məsləhət görürsə, elə də etsin. Lakin mən bunun tərəfdarı deyiləm. Əvvəldən yaşayanda çox şeylər yaşana bilər, hər iki tərəf üçün sonra pis ola bilər. Ona görə də, mənim fikrim Şərq üslubudur".

***Söylü Ağazadə***

# FHN-20: yubiley medalı kimlərə veriləcək?

Prezident İlham Əliyev bir neçə gün öncə Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin 20 illiyinin tamam olması münasibəti ilə "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin 20 illiyi (2005–2025)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 1 may tarixli 191-VIIQD nömrəli Qanununun tətbiqi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərman imzalayıb.

Yubiley medalı bürüncdən tökülmüş, diametri 38 mm olan qızılı rəngli səkkizguşəli ulduz formalı metal lövhədən ibarətdir. Səkkizguşəli ulduzun ön tərəfi qızılı rəngdə relyeflə haşiyələnib, içi ağ rəngdədir. Ulduzun xarici guşələri arasındakı bucaqlarda qızılı rəngdə şüalar yerləşdirilib. Mərkəzdə qırmızı fonda müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın rəsmi emblemindən ibarət kompozisiya təsvir olunub.

Kompozisiyanın yuxarı hissəsində qövs boyunca qara rəngdə basma üsulu ilə "Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi" sözləri qızılı rəngdə dekorativ lentin üzərində yazılıb. Kompozisiyanın aşağı hissəsində Azərbaycan Respublikası Dövlət Bayrağının rənglərinə uyğun dekorativ lentin təsviri verilib. Dekorativ lentin üzərində sol tərəfdə alt-alta qızılı rəngdə "2005" və "2025" rəqəmləri, sağ tərəfdə isə qızılı rəngdə dəfnə budağının üstündə içi ağ rəngdə olan "20 İL" sözləri yazılıb. Bütün yazılar, rəqəmlər və elementlər relyeflidir.

Medalın arxa tərəfi hamar səthlidir. Yuxarı hissəsində medalın seriyası və nömrəsi həkk olunub. Arxa tərəfin mərkəzində "Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliynin 20 illiyi" sözləri və həmin sözlərin altında "(2005–2025)" rəqəmləri həkk olunub. Arxa tərəfin aşağı hissəsində milli ornament təsvir olunub. Bütün yazılar, rəqəmlər və ornament relyefli və qızılı rəngdədir.

Medal paltara bərkidilmək üçün elementi olan, üst hissəsi 40 mm x 4 mm, alt hissəsi 40 mm x 6,5 mm ölçüdə qızılı rəngli metal lövhədən, orta hissəsi 37 mm x 50 mm ölçüdə xara lentdən ibarət düzbucaqlı lövhəyə halqa və ilgək vasitəsilə birləşdirilir. Alt hissədə olan qızılı rəngli metal lövhənin üzərində milli ornament həkk olunub. Xara lent mərkəzdə eni 3 mm olan sarı, mərkəzdən kənarlara doğru isə ardıcıllıqla eni 2 mm olan qırmızı, 3 mm olan göy, 10 mm olan qırmızı və 2 mm olan sarı rəngli şaquli zolaqlara bölünüb. Medala paltarın yaxasına bərkidilmək üçün elementi olan, metaldan düzəldilmiş və eyni xara lentdən üz çəkilmiş 37 mm x 10 mm ölçüdə qəlib əlavə olunur.

Yubiley medalı ilə Azərbaycan Respublikasının fövqəladə hallar orqanlarının fəaliyyətinin təşkilində, inkişafında və möhkəmləndirilməsində xüsusi xidmətləri olan, habelə mülki müdafiə işinin təşkili, əhalinin və ərazilərin fövqəladə hallardan qorunması və fövqəladə halların nəticələrinin aradan qaldırılması tədbirlərinin həyata




keçirilməsində fəal iştirak edən şəxslər təltif ediləcəklər. Mükafatlandırılacaq şəxsləri müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan təltif edir.

Azərbaycan Prezidenti İlham Əliyevin 2005-ci il 16 dekabr tarixli Sərəncamı ilə yaradılmış Fövqəladə Hallar Nazirliyi ölkədə əhalinin təbii fəlakətlərdən, texnogen xarakterli qəzalardan və yanğından qorunması, belə hadisələrin nəticələrinin aradan qaldırılması məsələlərini həll edən, habelə mülki müdafiə sahəsində dövlət siyasətini həyata keçirən, xilasetmə və bərpa işləri üzrə mərkəzi və yerli icra hakimiyyəti orqanlarının, digər müəssisə və təşkilatların fəaliyyətinin əlaqələndirilməsini təmin edən mərkəzi icra hakimiyyəti orqanıdır.

Mülki müdafiə əhalinin və ərazilərin fövqəladə hallardan qorunması, yanğın təhlükəsizliyinin, su hövzələrində insanların təhlükəsizliyinin, sənayedə və dağ-mədən işlərində texniki təhlükəsizliyin və tikintidə təhlükəsizliyin təmin olunması, neft və neft məhsullarının qəza nəticəsində axımları ilə əlaqədar yaranmış fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması, dövlət material ehtiyatları fondlarının yaradılması sahələrində dövlət siyasətini və tənzimlənməsini işləyib hazırlayır və həyata keçirilməsini təmin edir.

Fövqəladə Hallar Nazirliyi 20 il ərzində tam formalaşıb və bu gün Azərbaycandakı ən güclü strukturlardan biridir. Ümumiyyətlə, fövqəladə hallarla mübarizə yalnız operativ yardım deyil, həm də cəmiyyətdə milli təhlükəsizlik məsələsidir. Prezidentin bu sahəyə xüsusi diqqət ayırması, onu strateji sahə kimi qəbul etməsi deməkdir. Çünki bir ölkənin inkişafı yalnız iqtisadi göstəricilərlə deyil, vətəndaşların təhlükəsizliyi və həyat səviyyəsi ilə də ölçülür. Fövqəladə hallarda müraciət ediləcək biri qurumun olması panik anında insanı rahatladan ən vacib amildir. İnsanlar bilirlər ki, təhlükə zamanı onları qoruyan strukturlar var və başına bir hadisə gələrsə xilas edənlər olacaq.

Fövqəladə Hallar Nazirliyinin yubiley medalının təsis edilməsi sadəcə simvolik deyil, strateji, siyasi və sosial məna daşıyan addımdır. Bu qərar həm dövlət idarəçiliyinin dərinliyini, həm də insan amilinə verdiyi önəmi ortaya qoyur. Belə təşəbbüslər Azərbaycan cəmiyyətində həmrəyliyin, təhlükəsizliyin və xidmətə dəyərin rəmzidir.

***Lalə Mehralı***

ARAŞDIRMA

# Qurbağa ətinə tələbat niyə artıb?

***Qurbağa əti dünyada müxtəlif coğrafiyalarda və müxtəlif mədəniyyətlərdə geniş şəkildə istehlak olunan bir qida məhsuludur. Xüsusilə Fransa, Çin, Tailand, Vyetnam, Meksika kimi ölkələrdə qurbağa ətinə tez-tez rast gəlinir. Fransada, Paris kimi böyük şəhərlərdə restoran menyularında "cuisses de grenouille" (qurbağa ayaqları) tez-tez təqdim olunur və bu yemək Fransız mətbəxinin ənənəvi dadlarından biri hesab olunur. SİA mövzu ilə bağlı araşdırma aparıb.***



Asiya ölkələrində isə qurbağa əti təzə və sağlam protein mənbəyi kimi üstünlük təşkil edir. Qurbağa əti, eyni zamanda bəzi Cənub-Şərqi Asiya və Afrika ölkələrində də geniş şəkildə istehlak olunur. Qurbağa ətinin qida dəyəri baxımından zəngin olduğunu demək mümkündür. Yüksək keyfiyyətli zülal mənbəyi olan qurbağa əti, aşağı yağ nisbətinə malikdir. 100 qram qurbağa ayağı təxminən 73 kalori, 16 qram zülal və cəmi 1 qram yağ ehtiva edir. Bundan əlavə, vitamin və minerallarla da zəngindir.

Qurbağa əti B12 vitamini, kalium və omega-3 yağ turşuları baxımından yaxşı mənbə sayılır. B12 vitamini orqanizmdə qırmızı qan hüceyrələrinin istehsalı və sinir sistemi sağlamlığı üçün vacibdir. Omega-3 yağ turşuları isə ürək sağlamlığını dəstəkləyir və iltihabı azalda bilər. Bundan başqa, qurbağa əti kalium baxımından da olduqca zəngindir. Bu isə ürək ritmini tənzimləməyə və əzələ funksiyalarını yaxşılaşdırmağa kömək edə bilər.

Dadına gəlincə, qurbağa əti toyuq əti ilə oxşar dad daşıyan bir məhsul kimi təsvir olunur, lakin qurbağa əti daha yumşaq və yüngül quruluşa malikdir. Qurbağanın ən çox üstünlük verilən hissəsi onun ayaqlarıdır və bişirildikdə zeytun yağı, sarımsaq, limon və müxtəlif ədviyyatlarla dadlandırılır. Qurbağa ətinin hazırlanması bişirmə üsulundan asılı olaraq dəyişə bilər. Bəzi restoranlarda bu ətin qızardılmış və ya sobada bişirilmiş variantları təqdim olunur, bəzi yerlərdə isə şorba və ya qarnirlə birlikdə yeməklərdə istifadə olunur.

Qurbağa ayaqları, kərə yağı və ya sarımsaq sousu ilə hazırlanan məşhur Fransız yeməyi kimi tanınır. Qurbağa ətinin bəzi yerli yeməklərdə istifadə olunması ilə yanaşı, yeməkdən kənar tibbi və ənənəvi müalicə üsullarında da istifadə edildiyi məlumdur. Lakin qurbağa ətinin istehlakı ilə bağlı bəzi narahatlıqlar da mövcuddur. Bu ətin ovlanması bəzi qurbağa növlərinin nəsli kəsilmə təhlükəsi ilə üzləşməsinə səbəb ola bilər. Həddindən artıq ovlanma, yaşayış mühitinin məhv edilməsi və çirklənmə kimi amillər qurbağa populyasiyalarını təhdid edir. Bəzi növlər beynəlxalq səviyyədə mühafizə altına alınıb və bu növlərin istehlakı bəzi ölkələrdə qadağandır.

Bundan əlavə, qurbağa ətinin tədarük zənciri gigiyena və sağlamlıq standartlarına riayət olunmadıqda risk yarada bilər. Təbii mühitdə tutulan qurbağalar müxtəlif parazitlər daşıya bilər və bu da insan sağlamlığına zərər verə bilər. Buna görə də qurbağa əti yalnız təzə və təhlükəsiz mənbədən əldə edilməlidir. Qurani-Kərimdə bəzi müsəlman cəmiyyətləri üçün qurbağa ətinin yeyilməsi haram sayılır. Digər tərəfdən, Asiya mədəniyyətlərində qurbağa əti demək olar ki, meyvə və tərəvəzlər qədər ənənəvi bir qida hesab olunur və hörmətlə yanaşılır. Eyni zamanda yeməklərin bir tərkib hissəsi kimi istifadə olunur.

## QURBAĞA YEMƏK ZƏRƏRLİDİR?

Qurbağa əti sağlam protein mənbəyi kimi qəbul edilsə də, bəzi hallarda yeyilməsi sağlamlıq baxımından risklər daşıya bilər. Əvvəlcə, qurbağaların təbii yaşayış mühitlərində daşıya biləcəkləri parazitlər və bakteriyalar insan sağlamlığı üçün təhlükəli ola bilər. Qurbağalar, xüsusilə suyun çirkli olduğu yerlərdə yaşayırsa, bu mikroorqanizmləri bədənlərində daşıya bilərlər. Qurbağa ətinin düzgün bişirilməsi son dərəcə vacibdir. Yetərsiz bişirmə potensial olaraq zərərli bakteriyaların sağ qalmasına və insan bədəninə keçməsinə səbəb ola bilər.

Üstəlik, qurbağa ətinin hansı şəkildə tədarük olunması da sağlamlıq baxımından kritik bir amildir. Əgər ovçuluq nəzarətsiz və dayanıqlı olmayan şəkildə həyata keçirilərsə, bu yalnız ətraf mühitə zərər verməklə kifayətlənmir, eyni zamanda qurbağaların orqanizmində olan toksinlər və ya kimyəvi maddələr səbəbindən daha təhlükəli hala gəlməsinə səbəb ola bilər. Qurbağa ətinin istehlakının digər potensial riski bəzi insanlarda allergik reaksiyalara yol aça bilməsidir. Digər dəniz məhsulları və ilan kimi heyvanlarda olduğu kimi, qurbağalar da histamin adlı maddə daşıya bilər və bu da bəzi insanlarda ciddi allergik reaksiyalar yarada bilər.

Bundan başqa, qurbağa əti bəzi mədəni və dini inanclara görə yeyilməsi qadağan edilmiş qida məhsulu sayılır və bu hal, insanların və cəmiyyətlərin qida seçimi ilə bağlı yanlış anlayışlara yol aça bilər. Qurbağaların ovlanması bir çox növün populyasiyasını təhlükə altına salır. Həddindən artıq ovlanma və yaşayış mühitinin məhv edilməsi kimi amillər bəzi qurbağa növlərinin yox olma təhlükəsini artırmış və bu növlərin qorunması üçün tədbirlərin görülməsini zəruri etmişdir.

Bu səbəbdən qurbağa ətinin davamlı və etik şəkildə əldə olunması vacibdir.

## DİN BAXIMINDAN QURBAĞA ƏTİ YEMƏK GÜNAHDIRMI?

İslam dinində qurbağa əti yemək ümumilikdə haram (qəti qadağan) hesab edilmir, lakin bəzi fətvalarda bu mövzuda müəyyən məhdudiyyətlər və izahlar mövcuddur. İslamda halal və haram anlayışları Qurani-Kərim və səhih hədislər əsasında müəyyən olunur. Qurbağa həm quruda, həm də suda yaşayan bir heyvan olduğu üçün Quranda və ya səhih hədislərdə açıq şəkildə qadağan edilmiş heyvanlardan biri deyil.

Bəzi İslam alimləri qurbağa əti yeməyin bəyənilmədiyini və bəzi məzhəblərə görə məhruh (yəni xoş qarşılanmayan, çirkin görülən, amma haram sayılmayan) olduğunu bildiriblər. Bu baxış tərzi, əsasən qurbağaların natəmiz mühitlərdə yaşaması və orqanizmlərində parazitlər daşıya bilməsi səbəbilə sağlamlıq baxımından riskli olması ilə izah olunur. Bəzi hədislərdə də qurbağaların öldürülməsi ilə bağlı tövsiyələr yer alır. Məsələn, Peyğəmbərimiz (s.ə.s.) tərəfindən qurbağaların öldürülməsi ilə bağlı konkret bir göstəriş verilmədiyi, lakin bəzi hədislərdə bu heyvanların öldürülməsinin qadağan olunduğu və ya xoş qarşılanmadığı ifadə olunmuşdur. Ümumi nəticə olaraq, qurbağa əti yeməyin qəti şəkildə caiz olmadığına dair yekdil bir hökm yoxdur. Bunun əvəzində, qurbağa ətinin istehlakı ilə bağlı müxtəlif məzhəblər və yerli inanclar arasında fərqliliklər mövcuddur.

Dietoloq Ceyhunə Yusifova: "Son illərdə sağlam qidalanma trendlərinin güclənməsi ilə bir sıra qeyri-ənənəvi, lakin yüksək dəyərli qida məhsullarına maraq xeyli artıb. Onlardan biri də qurbağa ətidir. Artıq paytaxt Bakıda bu ətin satışının genişlənməsi, restoran menyularında yer alması və xüsusi sifarişlər üzrə alınması bu sahəyə olan tələbatın artdığını göstərir

Ceyhunə Yusifova sözlərinə belə davam edib:

Qurbağa ətinin qidalanmadakı yeri

Qurbağa əti bir çox dünya ölkəsində – xüsusilə Fransa, Çin, Tailand və Vyetnam kimi yerlərdə uzun illərdir ki, kulinariya mədəniyyətinin bir hissəsidir. Azərbaycan bazarında yeni-yeni tanınmağa başlasa da, bu ətin tərkibi və sağlamlığa təsiri onun gələcəkdə daha geniş auditoriyaya çatacağına işarədir.

Qurbağa ətinin əsas faydaları

Yüksək bioloji dəyərə malik zülal mənbəyidir:

100 q qurbağa ətində təxminən 16–18 qram protein var. Bu proteinlər bədəndə əzələ bərpası, toxumaların yenilənməsi və immun sisteminin gücləndirilməsində mühüm rol oynayır.

Aşağı yağ və kalori tərkibli qidadır:

Qurbağa əti az yağlı olduğu üçün pəhriz saxlayanlar, arıqlamaq istəyənlər və yağ qəbulu məhdud olan şəxslər üçün ideal seçimdir.

Omega-3 və kaliumla zəngindir:

Bu maddələr ürək-damar sağlamlığını dəstəkləyir, təzyiqin tənzimlənməsinə və xolesterinin balanslanmasına kömək edir.

Həzm sistemi üçün yüngül və asan qəbul olunur:

Mədə-bağırsaq həssaslığı olan şəxslər üçün tövsiyə edilə bilər, çünki ağır və yağlı ətlərə nisbətən daha asan həzm olunur.

B12 vitamini və dəmir tərkiblidir:

Sinir sisteminin sağlamlığı və qan hüceyrələrinin yenilənməsi üçün vacib olan bu maddələr qurbağa ətində təbii şəkildə mövcuddur.

## Qurbağa ətinə olan tələbat niyə artır?

1. Sağlam qidalanma tendensiyaları:

Alternativ protein mənbələrinə keçid edən şəxslər toyuq, mal və balıq ətindən əlavə olaraq qurbağa ətini sınamağa başlayıb.

2. Restoran və qastronomiya sektorunun genişlənməsi:

Yeni menyular, dünya mətbəxinə maraq və fərqli ləzzət axtarışları qurbağa ətinin Azərbaycanda da istifadə edilməsini artırıb.

3. İnformasiya və maarifləndirmə:

Sosial mediada və xəbər portallarında qurbağa ətinin faydaları ilə bağlı artan məlumatlar insanların fikrini dəyişib.

4. Diyetoloqlar və sağlamlıq mütəxəssislərinin tövsiyələri:

Xüsusilə pəhriz proqramlarında az yağlı və yüksək zülallı qidalar tövsiyə olunduğundan, qurbağa əti də bu siyahıya daxil edilir.

Kimlərə tövsiyə oluna bilər?

- Arıqlamaq istəyənlər
- İdmanla məşğul olanlar və əzələ bərpa proqramında olanlar
- Mədə-bağırsaq problemi olanlar
- Ürək-damar sağlamlığına diqqət edənlər
- Dəmir çatışmazlığı və B12 vitamini azlığı olanlar

Qeyd:

Qurbağa əti yeyilmədən öncə gigiyenik şəraitdə hazırlanmalı və tam bişirilməlidir. Xüsusilə hamilə qadınlar və immuniteti zəif olan şəxslər bu ətə qarşı ehtiyatlı yanaşmalıdır. İslami və mədəni baxımdan bu qidanın qəbul ediləbilərliyi şəxsi seçim və inanclara görə dəyişə bilər".

*Ayşən Vəli*

# Azərbaycan deyəndə qələbələrin yaşandığı dövlət yada düşür

***Azərbaycan Prezidenti İlham Əliyevin "Avropa Siyasi Birliyi"nin 6-cı Zirvə toplantısında iştirakı və səfər çərçivəsində Prezidentimizin Avropa ölkələrinin liderləri ilə ikitərəfli görüşlərini izlədikcə qürur duyub, fəxr etdim. Avropa ölkələrinin liderlərinin Prezident İlham Əliyevə yaxınlaşaraq səmimi söhbətlər aparmaları bir daha Azərbaycanın dünyada hökm sürən bir sıra problemlərin həllində, o cümlədən siyasi, enerji, nəqliyyat sahələrində yaranan çətinliklərin aradan qaldırılmasında böyük gücə və imkanlara malik dövlət olduğu təsdiqləndi. Birmənalı şəkildə demək olar ki, keçirilən görüşlər Azərbaycanın Avropa İttifaqı və Avropa ölkələri ilə əlaqələrinin inkişafının növbəti təzahürü idi.***



Təbii ki, bu əlaqələri yaradan və inkişaf etdirən Azərbaycan Prezidenti İlham Əliyevin liderlik məharətidir. Bu kimi dəyərləndirmələr, ölkəmizə olan yüksək hörmət və rəğbət onu göstərir ki, bəli 2003-cü il prezident seçkiləri ərəfəsi Cənab İlham Əliyevin xalqa verdiyi bütün vədləri və sözləri yerinə yetirib. Azərbaycan xalqı 22 il öncə Cənab İlham Əliyevi prezident seçməklə sülhün, tərəqqinin, inkişafın, əmin-amanlığın və sabitliyin tərəfində olduğunu nümayiş etdirdi. Cənab İlham Əliyevin Prezident kimi Azərbaycana rəhbərlik etdiyi 22 il ərzində ölkəmizdə bütün sahələrdə sürətli inkişafa nail olunub, insanların sosial-iqtisadi vəziyyəti daha da yaxşılaşıb. Birmənalı şəkildə demək olar ki, regionda reallaşdırılan bütün beynəlxalq, irimiqyaslı layihələr Azərbaycanın iştirakı və milli maraqlarının nəzərə alınması ilə həyata keçirilir. Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə çıxışlarında vurğulayıb ki, əldə edilmiş uğurların dünyada bərabəri yoxdur, bu danılmaz aksiomadır: "Güclü dövlət, güclü iqtisadiyyat və sosial rifah. Bax, bu prinsiplərin vəhdəti bu gün Azərbaycanı dünyada seçilmiş ölkələrin sırasına daxil edibdir. Bunun nəticəsində, biz uğurla inkişaf edirik".

## Dövlətimiz Cənubi Qafqazın siyasi, iqtisadi mərkəzinə çevrilib

Son 22 ildə Azərbaycan Prezidenti İlham Əliyevin uğurlu inkişaf strategiyası nəticəsində ölkəmiz dayanıqlı və davamlı iqtisadi inkişafa nail olub, əhalinin sosial-iqtisadi vəziyyəti daha da yaxşılaşıb, beynəlxalq aləmdə nüfuzu daha da artıb, dövlətimiz Cənubi Qafqazın siyasi, iqtisadi mərkəzinə çevrilib. Əhalinin sosial vəziyyətinin yaxşılaşması isə davamlı xarakter daşıyır. Vaxtaşırı olaraq şəhid ailələrinin, qazilərin mənzil, məişət şəraitinin yaxşılaşdırılması istiqamətində mühüm addımlar atılır. Şəhid ailə üzvləri və müharibə veteranlarından ibarət 103 min şəxsə aylıq sosial ödəniş təyin olunması, 3 565 şəxsə sığorta ödənişinin edilməsi bu kateqoriyadan olan insanlara diqqət və qayğının göstəricisidir. 1997-ci il avqustun 2-dək hərbi xidmətdə aldığı xəsarətlə bağlı əlilliyi olan 17 164 şəxs üzrə birdəfəlik ödəmə verilib. Şəhid ailələri üzvləri, müharibə iştirakçılarından ibarət 11 min şəxsə 43 min sosial-psixoloji dəstək və reabilitasiya xidməti göstərilib. Ötən dövr ərzində şəhid ailələrinə və qazilərə 13560 mənzil və fərdi ev verilib. Qazilər avtomobillərlə təmin olunub, xarici ölkələrdə müalicə və müayinələri təmin edilib. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev Ümummilli Lider Heydər Əliyev irsini qətiyyətlə davam etdirərək, Qarabağ problemini birdəfəlik həll etdi, ata vəsiyyətini, xalqına vermiş olduğu vədini yerini yetirərək, tarix yazan lider olduğunu nümayiş etdirdi. Bu gün bütün dünya Prezident İlham Əliyevin verdiyi sözlərə istisnasız əməl edən, sözü ilə əməlinin üst-üstə düşən, sözünün dəyərli və keçərli olduğunu görən böyük siyasi xadim kimi tanıyır. 22 il bundan əvvəl prezident seçkilərində Cənab İlham Əliyev doğma xalqıma müraciət edərək söz vermişdir ki, Azərbaycan xalqının və Azərbaycan dövlətinin milli maraqlarını müdafiə edəcək və Azərbaycanın ərazi bütövlüyünü qoruyacaq. Azərbaycan Ordusu 2016-cı ilin dördgünlük Aprel döyüşlərində düşmənə, təcavüzkar və işğalçı Ermənistana sözün əsl mənasında dərs keçdi, "güclü erməni ordusu" mifini darmadağın etdi.Bunun üstündən cəmi iki il keçəndən sonra, 2018-ci ilin yayında Azərbaycan Ordusu bu dəfə Naxçıvan istiqmətində düşmənə böyük, sarsıdıcı zərbə vurdu, tarixi Günnüt əməliyyatı ilə düşməni çox əhəmiyyətli, strateji mövqelərdən, yüksəkliklərdən geri çəkilməyə məcbur etdi. Aprel döyüşlərində dastan yazan Azərbaycan Ordusu Günnüt əməliyyatında bir daha düşmənə, işğalçı Ermənistana öz gücünü, qətiyyətini, əzmini nümayiş etdirdi. Bir daha göstərdi ki, Qarabağ məsələsində güzəşt mövqeyi olmayacaq, bir qarış torpaq belə düşmənə verilməyəcək.

## Qələbələrin daha bir nümunəsi...

Azərbaycan Prezidenti İlham Əliyevin xalq, dövlət maraqlarına əsaslanan xeyirli, gərəkli fəaliyyətinin əsas məğzini 44 günlük Vətən müharibəsi ilə 30 il işğal altında olmuş torpaqlarımızın düşmən əsarətindən azad edilməsi və bununla da Ali Baş Komandan İlham Əliyevin ata vəsiyyətini yerinə yetirməsidir. 44 günlük Vətən müharibəsində qazanılmış qələbə Azərbaycan tarixinə qızıl hərflərlə yazılan tarixi səhifə oldu. 2020-ci ildə Müzəffər Ordumuz Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ərazi bütövlüyünü bərpa etdi, müqəddəs Qarabağımız işğaldan azad olundu. 2023-cü ilin aprelin 23 -də isə Xankəndi-Laçın yolunun başlanğıcında, Həkəri çayının üzərində sərhəd- keçid məntəqəsi quruldu. Qələbələrin daha bir nümunəsi 2023-cü il sentyabrın 19 -da başlayan və 23 saat 44 dəqiqə çəkən antiterror əməliyyatları ilə Qarabağdakı terrorçu hərbi birləşmələrin tamamilə məhv edilərək, cinayətkar dəstələrin rəhbərlərinin həbs edilərək istintaqa təhvil verilməsi oldu. Mükəmməl şəkil də həyata keçirilən antiterror əməliyyatı ilə bölgədə sabitlik təmin edildi və Xankəndidə, Xocalıda, Əsgəranda və digər ərazilərimizdə Azərbaycanın üçrəngli bayrağı qaldırıldı. Ali Baş Komandan, Fateh Sərkərdə, Prezident İlham Əliyev Qarabağda keçirilən aniterror əməliyyatları barədə danışarkən qeyd edib ki, antiterror əməliyyatı çox uğurla, peşəkarlıqla keçirilmişdir, hərbçilərimiz böyük qəhrəmanlıq göstərmişdilər: "Deyirlər ki, əməliyyat 23 saat neçə dəqiqə çəkmişdir, amma əslində, daha qısa müddət ərzində tamamlanmışdır. Biz bütün nəzərdə tutduğumuz mövqelərə çıxdıq, bütün kommunikasiyalara sahib olduq, bütün təpələri götürdük və faktiki olaraq separatçıların təslim olmaları qaçılmaz idi, labüd idi, təslim olmasaydılar məhv olacaqdılar. Başqa variant ola bilməzdi. Bizdə olan məlumata görə, oradakı hərbi birləşmələrdə təqribən 15 minə yaxın hərbçi xidmət göstərirdi. Onlar daha tez təslim oldular. Ondan sonra, sadəcə olaraq, danışıqlar gedirdi və daha doğrusu danışıqlar yox, bizim şərtlərimizi onlar sanki müzakirə edirdilər. Ancaq biz hansı şərt qoymuşduqsa, o şərt də təmin edildi, o cümlədən separatist qurumun buraxılması və bütün digər şərtlər. Biz dedik ki, təslim olursunuzsa əməliyyatı dayandıracağıq. Bizim məqsədimiz orada Ermənistan ordusunu məhv etmək yox, oradan Ermənistan ordusunun çıxarılması idi və biz bu müraciəti dəfələrlə etmişdik. Bizdən xahiş olundu ki, əgər onlar silahları yerə qoysalar, onların təhlükəsizliyi təmin olunacaq-olunmayacaq? Təbii ki, günahı olmayan hərbçilərə qarşı biz hər hansı bir sanksiya tətbiq etmək fikrində deyilik. Halbuki separatçıların başçıları ilə bağlı bizim mövqeyimiz birmənalı idi – onların tutulması. Bəziləri artıq Laçın yolunda oradan qaçmağa cəhd edəndə, bəziləri Xankəndidə, bəzilərini də başqa yerlərdə biz tapıb tutmuşduq. Biz onların yerlərini bilirdik. Biz, ümumiyyətlə, deyə bilərəm ki, İkinci Qarabağ müharibəsindən sonra Qarabağda nələr baş verdiyindən tam xəbərdar idik, həm vizual, həm operativ tam nəzarət edirdik. Yəni, bunu Ermənistana çatdırmağa çalışırdıq ki, bu, bizim nəzarətimizdədir və istənilən an biz əməliyyat keçirə bilərik. Həm Ermənistan rəhbərliyinə, həm beynəlxalq aktorlara deyirdim ki, bir dəqiqə ərzində mən düyməyə basıb bu əməliyyatı keçirəcəyəm, heç nə də edə bilməyəcəksiniz. Açıq deyirdim onlara. Bu hadisələrin gedişatı onu göstərdi ki, - hesab edirəm bu, təkcə Ermənistan üçün yox, Ermənistanın arxasında dayananlar üçün də bir dərs olmalıdır, - bizimlə hədə-qorxu dili ilə, yaxud da təkəbbürlə davranmaq mümkün deyil. Yenə də deyirəm, əməliyyat hərb elmi nöqteyi-nəzərindən də çox uğurlu idi. Şuşa əməliyyatına oxşar bir əməliyyat idi. Əlbəttə, Şuşa əməliyyatı xüsusi peşəkarlıq tələb edən əməliyyat idi, amma bu da çox uğurlu idi. Yəni, bütün vəzifələr yerinə yetirildi və beləliklə, separatçılığa son qoyuldu".

Hazırda işğaldan azad edilən ərazilərimizdə geniş quruculuq, abadlıq, təmir və tikinti işləri həyata keçirilir. Yenidən qurulan ərazilərə keçmiş qaçqın və məcburi köçkünlər köçürülürlər. Bununla da o bölgələrə yeni həyat, yeni nəfəs bəxş edirlər. Əminliklə demək olar ki, işğaldan azad edilən ərazilərimiz bölgənin ən inkişaf edən bölgəsi olacaq. Böyük qurucu və Fateh Sərkərdə, Prezident İlham Əliyevin dediyin kimi, "Mən demişdim, biz Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik. Biz bunu edəcəyik. Necə ki, bu günə qədər verilən bütün vədlər həyatda öz əksini tapdı, bir dənə də olsun vəd yerinə yetirilməmiş qalmadı və İkinci Qarabağ müharibəsindəki parlaq Qələbəmiz buna əyani sübutdur".

***İLHAM ƏLİYEV***

# Milli mətbuat 150: janr mətbuatın "geyimidir"

***Milli mətbuatımız keçdiyi əsryarımlıq yolda inkişafın zirvəsinə qalxdı. Bir neçə ictimai-iqtisadi formasiya görsə də, lakin milliliyini, ənənələrini yaşatdı. Bu inkişafda yeni janrlar ortaya çıxdı. Hər bir janr isə mətbu orqanların rəngarəngliyi, oxunaqlı olması ilə nəticələndi. Yaranan janrların hər biri xalqın sözünü öz xüsusiyyətlərinə uyğun deməklə, müxtəlif təbəqələrdən olan oxucuların zövqünü oxşadı, onları yaşadıqları dövrün yaxşıları və pisləri ilə tanış etdi. Və qəzet o zaman qəzet oldu ki, bu janrların hər biri səhifələrində yer aldı.***




### IV YAZI

Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinin müəllimi, hamımızın sevimlisi olmuş mərhum professor Famil Mehdi mətbuat janrlarının ümumi mənzərəsini bu cür xarakterizə edirdi: xəbər, hesabat, müsahibə, reportaj, korrespondensiya, məqalə, icmal, resenziya, məktub, mətbuat xülasəsi, zarisovka, oçerk, felyeton, pamflet və təmsil, şarj, parodiya. Ancaq bu siyahıya esse, söz, gündəlik, səfərnamə, bədii-publisist, tərcümeyi-hal, xatirə, bədii nitq, nekroloq və başqalarını da əlavə etmək lazımdır.

Dəyərli müəllimimiz Cahangir Məmmədli isə bu janrların hər birinin yaradıcılıq məqamında jurnalistin özünüifadə aktına çevrildiyini qeyd edir, vurğulayır ki, janr müəllifə özünüifadə üçün xüsusi imkan yaradır.

Təbii ki, jurnalistin peşəkarlıq səviyyəsinə yüksəlməsində janr məqamının böyük rolu var. Jurnalistlər zaman-zaman daimi yazdıqları janrların sayəsində püxtələşir, yaxşı xəbərçiyə, icmalçıya, oçerkistə, felyetonçuya, publisistə, ən başlıcası isə peşəkar jurnalistə çevrilirlər.

Bu qədər zəngin janrlara məxsus olduğumuz halda, gəlin görək, bugünkü müasir mətbuatımız onların hər birindən yararlana bilirmi? Bu janrları yaşada bilirikmi? Yoxsa onları çoxdan arxivdə saralmış vərəqlərin arasına göndərmişik...

### Yoxa çıxan janrlar

Artıq məlum məsələdir ki, müasir mətbuatımızda janr bolluğundan, əslində varlığından danışmaq əbəs məsələdir. Çünki artıq bir-birindən maraqlı olan janrları illərdir ki, arxivə yola salıb bir neçə janrla qəzet çıxarır, agentliklər idarə edirik. Hansı ki, dövrün, zamanın dəyişməsindən asılı olmayaraq bu janrların yaşadılması istehsal etdiyimiz məhsulun daha da keyfiyyətli olmasına dəlalət edərdi.

Hazırda mətbuatımız xəbərçiliyə xidmət edir. Mətbuat, qəzet, agentlik deyiləndə düşünülən yalnız onlardan informasiya qəbul etməkdir. Çünki onlar əsasən xəbərə üstünlük verirlər. İndi artıq ölkəmizdə elə qəzetlər dərc olunmur ki, bir sayında mətbuat janrlarının bir neçəsini əhatə edən yazılarla rastlaşa, rəngarəngliк görə, müxtəlif janrlarda yazılan yazıları oxuya biləsən və əlində həqiqətən də qəzet olduğunu hiss edəsən. Və yaxud sonuncu səhifədə fotojurnalistika janrına məxsus bir foto görüb fotonun dili ilə bir ictimai qınağın, təbiət mənzərəsinin, qeyri-adi nəyinsə şahisi olasan. Ya bircə dəfə bir karikaturaya rast gəlib keçmişi yada salasan. Yoxsa cəmiyyətimizdə karikaturalıq hadisə yoxdur?





İllərdir ki, janrları torpağa gömmüşük, havaya uçurmuşuq. Bakı Dövlət Universitetinin jurnalistika fakültəsi hər il onlarla jurnalist verir mətbuatımıza. Onlar təhsil illərində janrlar haqqında bilik əldə etsələr də, elə ki iş yeri üçün mətbuata yerləşirlər, olurlar burada janrları unudanlardan biri və başlayırlar köhnə kəndə yenilik gətirmədən fəaliyyətə. Xəbər, xəbər, xəbər... Nə qədər xəbər?.. Hamı xəbər yazır. Bütün bunların günahkarı isə gənc jurnalistlər deyil, bizlərik. Biz onlara yol göstərməli, biz qəzetçilik ənənələrini yaşatmalıyıq ki, gənc jurnalistlər də bizdən nümunə götürsünlər.

### Janr axtarışına çıxsaq...

Bəli, necə ki, "geyim insanın yaraşığıdır",- deyirik, janr da qəzetin geyimi və yaraşığıdır. Elə ki, həyatımızı "müasirləşdirdik", biz yaman dəyişdik. Nə kitab oxuduq, nə köhnə filmləri izlədik, mahnıları dinlədik. Eləcə də geyimlərimiz dəyişdi. Ətəklərimiz dizdən iki qarış yuxarı, köynəklərimiz beldən bir qarış yuxarı qalxdı. Qadınlar ətəkdən çox şalvara üstünlük verdilər. Kişili-qadınlı saçlarımızı təbiətə naməlum rənglərə boyadıq. Qəzetlərimizi də eynilə özümüzə oxşatdıq. Əynindən paltarını (janrları) soyundurduq. Onları müasirləşdimək istərkən elə bir vəziyyətə gətirib çıxardıq ki, özü özündən utanmağa başladı. Baxdı ki, quruca canı qalıb ortalıqda. Nə janrı var, nə fotosu, nə dadı, nə də ki duzu...

Gəlin bu gün ölkəmizdə dərc olunan onlarla qəzetlərin bir günlük nömrəsini əlimizə alaq. Onların heç birində ən azından 3-4 janrı elə sayda görmək mümkün deyil. Nə felyeton, nə zarisovka, nə pamflet, parodiya, təmsil, nə icmal, oçerk, mətbuat xülasəsi və sair... Yoxdur. Artıq bu janrlardan tək bircəsini qəzet səhifələrində, agentliklərin xəbər lentində şam işığında iynə axtaranlar kimi axtarmağa başlamışıq. Lakin bəri başdan deyim ki, axtarmağa dəyməz. Çünki tapmaq mümkün olmayacaq, axtaranın da əziyyəti özünə qalacaq.

### Xəbər, müsahibə, reportaj, təhlil... Vəssalam

Müasir mətbuatımız hazırda bu dörd janrla gündəlik işini qurur. Xəbər başda dayanır, söz yox ki. Həm də necə dayanır, eyni xəbəri bütün agentliklərin təqdimatı ilə. Agentliklərin özünün xəbər istehsalı bu gün elə bir vəziyyətdədir ki, adamın dəsmal götürüb hönkürtü ilə ağlamağı gəlir.

Müsahibə, reportaj isə müasir dövrün ən işlək janrlarıdır. Çünki bu janrlar etiraf edək ki, digər janrlardan daha asan başa gəlir. Suallar verilir, səslər yazılır, həmin cavablar və səslər əsasında da yazı hazırlanır. Bu yazıların redaktəsindən söhbət açmaq başqa bir mövzu olduğu üçün bu barədə danışmaq yerinə düşməz.

Qaldı ki, təhlilə. Bu adda janr əslində yoxdur. Biz analitik janrları müasirləşdirib təhlil etmişik. Belə ki, əgər xəbərdə konkretlik, dəqiqlik, fakt əsas götürülürsə, analitik informasiyalarda həmin fakt təhlil olunur. Analitik hesabat, analitik korrespondensiya, analitik müsahibə, söhbət, analitik şərh bu janrların özünəməxsus xüsusiyyətlərindən əlavə, həm də onun təhlili ilə seçilir, hadisələrin açılması, nəticə verməsi ilə müəyyənləşir.

Redaksiyalarımıza yeni işə qəbul edilən jurnalistlər də, necə deyərlər, gözlərini mətbuata açandan bunlardan başqa janr görmədikləri üçün yaşları 30-35-ə çatır, baxırsan ki, onlardan əvvəlki jurnalistlər nə idilərsə, bunlar da onların davamçılarıdır. Beləliklə də icmal, oçerk, mətbuat xülasəsi felyeton, zarisovka, pamflet, parodiya, təmsil mətbuat orqanlarından uzaq düşüb. Unudulub, yaddan çıxarılıb, göz görə-görə arxivə yola salınıb.

Hazırda mətbu orqanlarda və yaxud agentlik, saytlarda təsadüf nəticəsində bu janrlara rast gəlmək olur. Belə olanda isə ac adam yeməyə necə "hücum" çəkirsə, yazını oxumağa elə girişirik. Söz yox ki, bu barədə mənimlə eyni fikirdə olan onlarla jurnalist və ya oxucu var.

### Maksim Qorki deyirdi ki...

...Söz sənəti heç bir zaman həyatı dərk etmək işinə bu qədər cəhdlə, bu qədər müvəffəqiyyətlə xidmət etməmişdir. Bunu xüsusilə oçerklərdə yaxşı görmək olar. Bu gözəl ifadələri Maksim Qorki söyləyirdi. Bir zamanlar mətbu orqanlarımızın bəzəyi olan oçerklər haqqında söyləyirdi. Yəqin xatırlayanlar olar ki, illər öncə nə qədər oçerklər yazılırdı. Həm də ovaxtkı mətbu orqanlarımız ona görə həm cazibədar, həm də maraqlı idi ki, bütün janrlarda yazılan yazıların sərlövhələrinin altında, ya da rubrikası olaraq janrların adı da verilirdi. Müasir mətbuatımızda isə təsadüf olaraq yaxşı bir oçerk oxuya bilsən də, nədənsə janr göstərilmir. Bəlkə də iddia edənlər olar ki, buna ehtiyac yoxdur. Çünki indi xeyli mətbuat başbilənləri yaranib. Lakin nə üçün ehtiyac yoxdur ki? Bunun özü bir xatırlatma deyilmi? Gənc jurnalistə göstərilən yol deyilmi? Nəticədə isə janrın yaşadılması deyilmi?

2020-ci ildə-ölkəmizdə İkinci Vətən müharibəsi zamanı düşünürdüm ki, oçerk janrı yenidən doğulacaq. Çünki müharibə bu janrın doğulması, həyata yenidən vəsiqə alması üçün gözəl imkanlar vermişdi. Oçerklər oxuduq da müharibə, şəhidlərimiz, Zəfərlə bağlı, lakin təqdimatda bunu görə bilmədik, gənclərimizə də bu səbəbdən təlqin edə bilmədik.

Oçerk həyatı obrazlı dərk etməyin və ona təsir göstərməyin vasitələrindən biridir. Başqa ədəbi janrlardan fərqli olaraq oçerk həyat hadisələrini konkret faktlar əsasında təsvir edir. Oçerk həyatda baş verən hadisədən, bir qəhrəmanın və ya kollektivin fəaliyyətindən bəhs edir. Bu janrda elə hadisələr və ya adamın işi təsvir edilir ki, həmin hadisə cəmiyyətin inkişafındakı amilləri əks etdirir, o adam hər kəsə nümunədir, ondan öyrənməli çox şeylər var. Oçerkdə bəhs etdiyimiz hadisəni xəbərdə də verə bilirik, lakin qısa və məlumat xarakterli. Lakin oxucuya oçerk vasitəsilə göstərdiyimiz təsiri, onda yaranan hissləri xəbərlə verə bilmirik axı. İnsanlar bədii üslubda yazılan yazıları daha çox oxumağı sevirlər, nəinki rəsmi. Bu səbəbdən də "hanı oçerklər?",- deyib həyəcan təbilini dayanmadan-durmadan çalmağın vaxtıdır.

*Ardı Səh. 12*

# Milli mətbuat 150: janr mətbuatın “geyimidir”




Əvvəli-Səh-11

### Resenziya deyiləndə...

Müasir mətbuatımızda yalnız yeni dərc olunan kitabları təriflənməklə resenziya janrının haqqının verildiyini zənn edənlər var. Lakin V. Belinski deyirdi ki, resenziya oxucunu istiqamətləndirməyə kömək edir, ən azı pis kitablara pul verməkdən çəkindirir.

Professor Cahangir Məmmədli isə yazır ki, resenziya latın dilindən olan resenziya (resensio) “baxış, məlumat, qiymət vermək, rəy” deməkdir. Azərbaycan dilində əslində, bu sözü rəy kimi istifadə etmək olar. Rəy-resenziya ədəbi əsərlər haqqında tənqidi fikirdir. Resenziya hər hansı çap məhsulu, kinofilm, incəsənət əsəri, teatr, televiziya, radio proqramları, qəzet, məqalə haqqında tənqidi baxışları əks etdirir.

2008-ci ildə “Azərbaycan” qəzeti resenziya mövzusunda ən yaxşı yazılarla çıxış edən qəzetlərdən olmuşdur. “Azərbaycanın efir məkanı: problemlər və vəzifələr” rubrikası ilə verilən onlarla resenziya müxtəlif telekanallarda yayımlanan proqramların aşağı səviyyədə, milli mentalitetimizə uyğun olmayan şəkildə olmasından bəhs edirdi.

Müasir mətbuatda isə bu janrın mahiyyətini ortaya qoyan yazılarla təsadüf nəticəsində rastlaşmaq olur. Hansı ki, ölkəmizdə hər gün yüzlərlə kitab dərc olunur, film, tamaşalar nümayiş etdirilir, verilişlər işıq



üzü görür onların əksəriyyəti yaxşı bir resenziyanın mövzusudur.

Bu arada, mən özüm də çoxdan bəri əsl resenziya yazmamışam, palaza bürünüb el ilə sürünmək prinsipinə əsasən mətbuatda dəbdə olan resenziyalardan yazmışam. Lakin 2009-cu ildə yazdığım “Müəlliflərindən əvvəl ölən kitablar” adlı resenziyanı da xatırladım. Hansı ki, çox səs-küyə səbəb olmuşdu.

### Torpağa gömülən zarisovka, felyeton, pamflet, təmsil, şarj, parodiya

Digər mətbuat janrlarına bəlkə də 2-3 aydan bir rast gəlmək mümkün olar ki, zarisovka, felyeton, pamflet, təmsil, şarj və parodiyaya son illərdə əksər mətbuat orqanlarında rast gələn olubmu? Bu gün onlarla jurnalistə bu janrların mahiyyəti ilə bağlı sual verilərsə, inanıram ki, çoxları bilməyəcək. Çünki bu janrları əllərimizlə mətbuatımızdan yox etmişik. Kimsə bunlardan istifadə etməyin deməyib bizə. Bu janrları məhv edənlər jurnalistlərin özləridir. Hansı ki, janr xüsusiyyətinə görə kiçik ölçüdə olan bu yazılar mətbuat, cəmiyyət üçün olduqca əlverişli ola bilərdi.

Bu janrlarla pis məqsədlər, mövqelər açıqlanır. Mətbuatımızın Mirzə Cəlilləri, Sabirləri, Üzeyirləri, Sidqiləri yaşadılmaqla yanaşı, həm də cəmiyyətin eybəcərlikləri, görülən işlərə qara yaxanlar, haramzadə, rüşvətxorlar, savadsız, kütbeyinlər, cəmiyyətə yamaq olanlar tənqid odunda yandırılır, alovlanır.

Qısa, lakonik ifadə tərzi ilə başa gələn yazılar bütün dövrlərdə oxucunun gözlədiyi janrlar olub. Bəs indi necə, oxucu bu janrlarda yazı oxumaq istəmir? Əlbəttə, istəyir. Lakin biz mətbuat adamları özümüz öz oxucumuzun zövqünü dəyişməyə qalxmışıq. Yazırıq ki, oxucu da oxusun?

Oxucularla əlaqəsi olanların hər biri etiraf edər ki, onlar bu janrlarda yazıların dərc olunmaması üçün biz jurnalistləri qınayırlar. Deyirlər ki, jurnalistlər, yazarlar vardı o zamanlar, nələr yazırdılar, siz nə yazırsınız ki? Hanı o felyetonlar?..

Gəlin, oxucuların cavabını verək. Onlar bizdən tələb edirlər, biz isə müasir dövrün küləyinə tuş gəlib hara getdiyimizi bilmirik. Çox təəssüflər olsun.

### Fotojurnalistika, haradasan?

Fotojurnalistika mətbuat janrları içərisində ən çətin, böyük məsuliyyət, peşəkarlıq tələb edən janrdır. Çünki burada söz yoxdur, təxəyyül, düşüncə, intuisiya, zövq vardır. Hər hansı qəzet janrında sözlər yazının başlanması və tamamlanmasını mümkün edirsə, müəllifin fikirləri ilə oxucu arasında əlaqə yaradırsa, fotojurnalistikada sözü düşüncə, zövq deyir.

Bəs nə üçün yoxa çıxarılıb bu janr? Axı vaxtilə qəzetlərin son səhifələrinin bəzəyi olurdu. İndi isə yoxluğa qovuşub. Bir foto ilə böyük bir mətləb ortaya qoyulurdu. Şəhərin, kəndin çirkli saxlanılan bir guşəsi sözlər olmadan ifadə edilirdi. Təbiətin bir gözəlliyi, möcüzəsi, turizm bölgələrinin bir əsrarəngizliyi fotolar vasitəsilə oxucu zövqünü oxşayır, onu məlumatlandırırdı. Müasir dövr qəzetlərinin səhifələrini isə bu gün şou xəbərləri, zorla qəzeti doldurmaq xarakteri daşıyan yemək reseptləri, diyet yeməkləri, dəb xəbərləri və əttökən digər yersiz materiallar tutur.

### Beləliklə, çox təəssüf...

Uzun sözün qısası, fatihəsini verdiyimiz janrlar üçün çox təəssüf olsun. Onlar bu gün hər bir qəzetin də, saytın, agentliyin də yaraşığı, oxucu sayı ola bilərdilər. Lakin üzərindən xətt çəkdik onların. Sanki həkim bir xəstəliyin üzərindən xətt çəkir ki, mən bu xəstəliyi olan insana baxmayacağam. Müəllim dərs proqramından bir mövzunu çıxarır ki, bu dərsi şagirdlərə öyrətməyəcəyəm. Mühəndis binanın layihəsində nəyi isə ixtisara salır. Bunlar mümkün ola bilərmi? Əlbəttə ki, xeyr. Bunları etməyə heç kimin haqqı yoxdur. Bəs belə isə mətbuat janrlarını ixtisar etməyə, arxivə göndərməyə, əslində isə torpağa gömməyə kimin haqqı çatır? Bu sual barədə bütün mətbuat işçiləri düşünsə, məncə itirdiyimiz janrların xeyrinə olar. Bu səbəbdən də gələcəkdə davamçılarımızın bizə gülməməsi üçün qayıdış etməliyik. Əsl mətbuatımıza qayıtmalıyıq. Bizə nəyi necə öyrədiblərsə, onları davam etdirməyə qayıtmalıyıq. İtirə-itirə gedəriksə, illər sonra özümüz peşman olarıq, əziz mətbuat adamları. Gəlin, qələmi əlimizə onun haqqını verərək alaq!

Bu əsr qəzetin ömrünün başa çatması əsridir. Artıq sosial media ənənəvini üstələyib və ənənəvi media öz yerini sosial mediaya verməkdədir. Lakin janrların necə, ömrünün son əsri olmasının fərmanını kim verib? Məgər elektron qəzetlərdə və ya agentlik, sayt, xəbər portallarında hər hansı bir janrda yazı yazmaq nə vaxtdan yasaq olunub? Buna haqqımız da yoxdur. Janrsız mətbuat paltarsız adam kimidir. Geyimini əynindən çıxarmayaq mətbuatımızın. Yoxsa son dövrlərin soyunan müğənniləri, insanları kimi gülünc obyekti olarıq.

***Mətanət Məmmədova***

# “Nar” mağazalarında inklüziv xidmət üçün hazırlıqlara start verildi

***Sərfəli xidmətləri ilə yanaşı, sosial layihələri ilə də tanınan “Nar” inklüziv cəmiyyətin qurulmasına yönəlmiş təşəbbüslərini davam etdirir. “Biz Hamımız Birik” adlı yeni DEIB (Diverislik, Bərabərlik, İnklüzivlik və Mənsubiyyət)strategiyası çərçivəsində şirkət həm əməkdaşlar, həm də müştərilər üçün bərabər, anlayışlı və əlçatan mühitin yaradılmasına töhfə verir. Təşəbbüsün ilk mərhələsi kimi, “Nar”ın ön ofis əməkdaşları üçün işarə dili üzrə təlimlərə start verilir. Bu təşəbbüs eşitmə məhdudiyyətli şəxslərlə effektiv ünsiyyət qurmaqla xidmətlərin tam əlçatan olmasını təmin etməyi hədəfləyir. Təlimlərtəcrübəli və sertifikatlı eşitmə məhdudiyyətli şirkət əməkdaşları tərəfindən aparılacaq ki, bu da öyrənmə prosesinə həm real təcrübə, həm də dəyər qatır.***




Layihənin növbəti mərhələsində eşitmə məhdudiyyətli şəxslərin ehtiyaclarını dərindən analiz edərək, onlar üçün xüsusi olaraq dizayn edilmiş sərfəli və rahat məhsullar, eləcə də Çağrı Mərkəzi dəstəyi təqdim olunacaq. Məqsəd — bu icma üzvlərinə gündəlik həyatlarında maneəsiz kommunikasiya imkanı yaratmaq və onların real ehtiyaclarına cavab verən xidmətlər təqdim etməkdir.

Hazırda 2,2 milyon abunəçiyə yüksəkkeyfiyyətli rabitə xidmətləri göstərən “Nar” son 6 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

# Azərbaycanda Suverenlik və Konstitusiya Gününün önəmi




***Tarixin muxtəlif mərhələlərində xalqımız kənar müdaxilələrə, məhrumiyyətlərə məruz qalıb. Buna baxmayaraq xalqımız milli kimliyini,mübarizə ruhunu qoruyub saxlamışdır. Azərbaycan xalqı öz ideallarına həmişə sadiq qalmış və XX əsrin sonlarında Dövlət müstəqilliyini bərpa etmişdir. 1991-ci ildə Sovet İttifaqının dağılması ilə Azərbaycan öz müstəqilliyini bərpa edərək beynəlxalq aləmdə bir suveren dövlət olaraq tanınmışdır. Müstəqillik aktının qəbulu ilə Azərbaycan öz siyasi, iqtisadi və mədəni iradəsini sərbəst şəkildə ifadə etmək hüququna malik olmuşdur. 1991-ci il Azərbaycan xalqının tarixində dönüş nöqtəsi oldu. Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktının qəbul edilməsi ilə xalqımız öz taleyinə sahib çıxdı.***

Bu addım Azərbaycanın beynəlxalq aləmdə müstəqil dövlət kimi tanınmasını və suverenliyini təmin etdi. Bunun ardınca 1995-ci il noyabrın 12-də müstəqil Azərbaycanın ilk Konstitusiyası qəbul edilmişdir. Bu sənəd ölkəmizin hüquqi-siyasi sisteminin əsasını təşkil etmiş və vətəndaşların hüquq və azadlıqlarının təminatını zəmin yaratmışdır. Bu günün qeyd olunması yalnız tarixi bir hadisəni anmaq üçün deyil, həm də gələcək nəsillərə vətənpərvərlik və milli dəyərlərin aşılanması məqsədi daşıyır. 1995-ci ildə qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyası isə dövlətin hüquqi çərçivəsini müəyyən edərək insan hüquqlarını, demokratiyanı və sosial ədaləti təmin edən əsas sənəd kimi çıxış etdi.

Azərbaycan Respublikası Konsitutsiyasının 109-cu maddəsinin 32-ci bəndinin rəhbər tutaraq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 28 dekabr 2024-cü il tarixli sərəncam ilə Azərbaycan Respublikasında “Konstitusiya və Suverenlik İli” elan edilib. Məhz bu il 1995-ci il noyabrın 12-də qəbul olunmuş müstəqil Azərbaycan Respublikasının Əsas Qanunu olan ilk müstəqil Konstitusiyasının qəbul edilməsinin 30 illiyi və 2020-ci il sentyabrın 27-də Ermənistanın təxribatlarına cavab olaraq başlanmış Vətən müharibəsində tarixi Zəfərin 5-ci ildönümüdür. Suverenlik və Konstitusiya Günü Azərbaycan xalqının birlik, azadlıq və hüquqi dövlət prinsiplərinə olan sədaqətini göstərir. Bu, ölkənin inkişafı və güclənməsi yolunda irəliyə doğru atılan addımların mühüm bir simvoludur. Azərbaycanda Suverenlik və Konstitusiya Günü milli tariximizin ən əlamətdar və yaddaqalan günlərindən biri kimi qeyd olunur. Bu gün ölkənin müstəqillik yolunda atdığı önəmli addımların rəmzi olaraq dəyərləndirilir və xalqın hüquqlarının, azadlıqlarının təminatını əks etdirən konstitusiyanın qəbul edilməsini təcəssüm etdirir.

Azərbaycanda Suverenlik və Konstitusiya Gününün tarixi əhəmiyyəti çox böyükdür, çünki bu gün müstəqil dövlət quruculuğunda əsas mərhələlərdən biri kimi yadda qalmışdır. 1995-ci il noyabrın 12-də Azərbaycan Respublikasının ilk Konstitusiyası qəbul edildi. Bu, ölkənin hüquqi-siyasi sisteminin əsaslarını müəyyən etdi və vətəndaşların hüquq və azadlıqlarının qorunmasını təmin edən bir çərçivə yaratdı.

Həmçinin, Konstitusiya Azərbaycanın suverenliyinin möhkəmləndirilməsi və beynəlxalq hüquq normalarına uyğun bir dövlət kimi tanınmasında mühüm rol oynadı. Bu sənəd dövlət qurumlarının fəaliyyət prinsiplərini, insan hüquqlarını və demokratik idarətmə prinsiplərini əsaslandıraraq Azərbaycan xalqının müstəqillik arzusunun reallaşmasını simvolizə edir.

Bu günün qeyd olunması xalqın müstəqillik uğrunda keçdiyi çətin yolları xatırlatmaqla yanaşı, milli birliyi, hüquqi maarifləndirməni və gələcək nəsillərə vətənpərvərlik ruhunun ötürülməsini təmin edir. Beləliklə, Suverenlik və Konstitusiya Günü həm tarixi, həm də milli dəyərlər baxımından xüsusi əhəmiyyət daşıyır. Azərbaycanın müstəqillik tarixi zəngin və çoxşaxəlidir. Əsas mərhələlərdən biri 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasıdır. Bu, müsəlman Şərqində ilk parlamentli, demokratik və dünyəvi dövlət idi. Lakin bu müstəqillik cəmi 23 ay davam etdi və 1920-ci ildə bolşeviklərin işğalı ilə sona çatdı.

Bu tarixi mərhələlər Azərbaycanın dövlətçilik ənənələrinin qorunub saxlanması və müasir dövrdə güclü, müstəqil dövlət kimi inkişaf etməsi üçün əsas rol oynayıb. Azərbaycanın müstəqillik uğrunda keçdiyi yol həm çətinliklər, həm də qürur dolu anlarla zəngindir. “Konstitusiya və Suverenlik İli” dövlətin hüquqi əsaslarının möhkəmləndirilməsi, dövlət suverenliyinin daha da gücləndirilməsi məqsədi daşıyır.

İstənilən xalq üçün müstəqil, suveren dövlətini yaratmaq və onu inkişaf etdirmək ən böyük nailiyyətdir. Ərazi, əhali və siyasi hakimiyyət kimi əsas atributları özündə ehtiva edən hər hansı siyasi varlığın dövlət olması üçün suverenlik, müstəqillik xüsusiyyətinə malik olması vacib şərtdir. Suverenlik istənilən dövlətin mövcudluğunun və davamlı inkişafının ilkin və əsas şərti qismində çıxış edir.

1969-cu ildə Ümummilli lider Heydər Əliyevin Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilməsi ilə ölkə intibah dövrünə qədəm qoydu. Tarixi inkişafın sonrakı gedişatı bir daha göstərdi ki , Ulu öndər Heydər Əliyev hələ Azərbaycana rəhbərliyinin birinci dövründən müstəqil dövlətimizi qurmağa başlamış və dayanmadan nəticəyə can atmışdır.

Azərbaycan Respublikası Dövlət müstəqilliyini bərpa etdikdən sonra ölkədə olan xaos, özbaşınalıq,hakimiyyət davası yeni konsitutsiyanın qəbulunu ləngidirdi. Yalnız Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Konstitusiyanın qəbulu mümkün oldu.

Beləliklə, Azərbaycan Respublikası Milli Məclisinin 1995-ci il 2 may tarixli 1048 saylı qərarı və Ulu öndər Heydər Əliyevin sədrliyi ilə yeni Konstitusiya layihəsini hazırlayan Komissiyanın 34 nəfər üzvdən ibarət tərkibi təsdiq olundu. Bu Konstitusiya Komissiyasının tərkibinə qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının nümayəndələri ilə yanaşı, tanınmış ictimai-siyasi və elm xadimləri, görkəmli hüquqşünaslar, tarixçilər, dilçilər daxil edilmişdi. Ümummilli lider Heydər Əliyev Konstitusiya Komissiyasının fəaliyyəti zamanı Əsas Qanunun layihəsinə dair öz dəyərli tövsiyələrini vermiş, Konstitusiyanın müddəalarını şəxsən nəzərdən keçirmiş, bu ali sənədin layihəsinin açıq müzakirələrini təşkil etməklə onun ən yetkin formada qəbul edilməsini təmin etmək üçün gərgin əmək sərf etmişdir.

Dünyada insan üçün azadlıqdan, dövlət üçün isə müstəqillikdən dəyərli heç nə yoxdur. Müstəqil dövlətin azad vətəndaşı olmaq isə hər insana qismət olmayan ən böyük xoşbəxtlikdir. Xalqımıza bəxş olunan bu xoşbəxtliyin müəllifi tariximizin Ümummilli Lideri Heydər Əliyevdir.

Sirr deyil ki, xalqımız tarixin keşməkeşli dövrlərində müxtəlif çətinliklərlə, xarici müdaxilələrlə qarşılaşmış, ancaq heç vaxt mübarizə ruhunu itirməmişdir. Əksinə bu çətinliklər xalqımızın daha da güclənməsinə, milli ideallarına sadiq qalmasına səbəb olmuşdur. XX əsrin sonunda müstəqilliyimizin bərpası ilə Azərbaycan xalqı öz tarixi arzularını reallaşdırmağa nail oldu, yeni bir dövrün əsası qoyuldu. Bu dövrün ən mühüm hadisələrindən biri isə ərazi bütövlüyünün bərpası yolundakı ən mühüm mərhələ oldu.2020-ci ilin 27 sentyabr tarixində Vətən müharibəsi başlandı. Ermənistanın təxribatlarına cavab olaraq Azərbaycan Silahlı Qüvvələri erməni əsarətində qalmış torpaqlarını geri qaytarmaq üçün hərbi əməliyyatlara başladı. Bu müharibə yalnız Azərbaycan xalqının torpaq uğrunda apardığı mübarizə deyil, həm də Azərbaycanın dövlət müstəqilliyi və suverenliyinin qorunması uğrunda böyük bir mücadilə idi. Ali Baş Komandanın düzgün strategiyası nəticəsində torpaqlarımız düşmən tapdağından azad olundu. Bu, həm də Azərbaycan Konstitusiyasının hüquqi qüvvəsinin bütün ərazilərdə bərqərar olmasını təmin etdi. 2023-cü ildə həyata keçirilən uğurlu antiterror əməliyyatı ilə Azərbaycanın suverenliyi bu ərazilərdə tam şəkildə bərpa edildi. Xankəndi şəhərində Azərbaycan Bayrağının ucaldılması ilə dövlət suverenliyimiz tam bərqərar oldu. . Bu, xalqımızın keçmişinə hörmət, gələcəyinə inam və dövlətinin gücləndirilməsi üçün birlik və iradə nümunəsi olacaq.

Ölkə başçısı cənab İlham Əliyevin ötən il sentyabrın 19-da “Azərbaycan Respublikasında Dövlət Suverenliyi Gününün təsis edilməsi haqqında” Sərəncamı isə tarix boyu öz xüsusi əhəmiyyəti ilə seçiləcək. Azərbaycan dövlətinin, xalqımızın tarixində ən parlaq səhifələrdən biri olan 20 sentyabr tarixi Sərəncama əsasən hər il ölkəmizdə “Dövlət Suverenliyi Günü” kimi qeyd edilir .

“Konstitusiya və Suverenlik İli” Azərbaycanın dövlətçilik tarixində yeni bir mərhələnin başlanğıcı olacaq, həmçinin ölkəmizin beynəlxalq arenada daha güclü mövqeyə sahibliyini və öz suveren hüquqlarını qorumaq istiqamətində dəyərlərə əsaslanan, dəyişməyən mövqe tutacağını bir daha nümayiş etdirəcəkdir.Atılacaq məqsədyönlü addımlar nəticəsində Azərbaycan yeni hədəflərinə də çatacaq. Azərbaycan xalqının güclü iradəsi və dövlət rəhbərinin düzgün və qətiyyətli siyasəti bunu inamla söyləməyə əsas verir. Konstitusiya və Müstəqillik İli təkcə hüquqi və siyasi aspektləri ilə deyil, həm də vətənpərvərlik ruhunun möhkəmləndirilməsi baxımından mühüm rol oynayır.

***Aidə Qurban qızı Musayeva***
***ADPU- nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin tarix müəllimi***



TƏHLİL

# Türkiyənin beynəlxalq miqyasda çəkisi və APARICI VASİTƏÇİLİK

***Artıq üç ildir ki, Türkiyə və məhz qardaş ölkənin prezidenti Ukrayna münaqişəsinin həll edilməli olduğunu və İstanbulun uyğun platforma ola biləcəyini bəyan edir. Bir sıra amillərə görə 2025-ci ildə Türkiyə vasitəçiliyinə olan ümidlər getdikcə artmaqdadır. Çünki həqiqətən də məhz bu dövlət, Türkiyə elə Ukrayna nizamlanmasında aparıcı vasitəçiyə çevrilib.***

### Trampın rəhbərliyi dövründə yeni dönüş və Türkiyənin regional lider olaraq qəbul edilməsi müşahidə olunur

Ola bilsin ki, ötən illərdə Türkiyənin Ukrayna nizamlanmasında vasitəçiliyi hərbi münaqişənin gedişatına görə qeyri-real görünürdü. Cozef Baydenin prezidentliyinin sonunda Amerika administrasiyası NATO-dakı müttəfiqləri ilə birlikdə Ukraynaya silah tədarükünü artırırdı, Rusiyaya qarşı sanksiyaları maksimum dərəcədə sərtləşdirirdi və daha genişmiqyaslı, qitələrarası hərbi toqquşmalara səbəb ola biləcək bir sıra təhlükəli addımlar gözlənilirdi. Uzaq mənzilli raketlərin tədarükü və Kiyevin onlardan Rusiyanın dərinliklərinə zərbələr endirmək üçün istifadə etməyə icazə verilməsi də münaqişənin sülh yolu ilə həllinə maneçilik kimi qiymətləndirilirdi.

ABŞ-da Donald Trampın hakimiyyətə gəlməsi ilə hər şey dəyişdi. ABŞ və Rusiya arasında yaxınlaşma ilk növbədə Ukrayna-Rüsiya münaqişəsində sülh perspektivləri vəd etdi. İlk danışıqlar platforması kimi Səudiyyə Ərəbistanı seçilsə belə, demək olar ki, dərhal İstanbulda iki ölkə arasında diplomatik münasibətləri tənzimləmək üçün ABŞ və Rusiya arasında danışıqlar aparıldı. Ər-Riyad və İstanbulda danışıqlar getdiyi bir vaxtda Trampın Ərdoğana yaxınlaşmağa başlaması və onu hər cəhətdən tərifləməsi, eləcə də çari ilin may ayının əvvəlində türkiyə liderinə Ukrayna məsələsində vasitəçi kimi fəaliyyət göstərməyi təklif etməsi heç də təsadüfi və səbəbsiz sayılmır. Hər kəs çox yaxşı başa düşür ki, ABŞ-ın NATO-dan uzaqlaşması səbəbindən Türkiyəni öz təhlükəsizlik sisteminə cəlb etməyə çalışması Avropanın gözündə Türkiyənin çəkisini, nüfuzunu daha da artırdı.

Bəli, məhz mayın 15-də Vladimir Putin özü də münaqişənin həlli ilə bağlı Ukrayna ilə danışıqların İstanbul formatını bərpa etmək təklifi heç də diqqətdən yayınacaq məqam deyil. Bu, bir növ Türkiyənin həlledici rolunu etiraf etmək demək idi. Doğrudur, ABŞ əvvəlcə İstanbuldakı danışıqlarda iştirak etməyi planlaşdırmırdı, çünki Tramp və Zelenski orada Putini heç gözləmək niyyətində də olmayıblar. Amma qeyd olunur ki, Ankarada olan Zelenski Ərdoğanla görüşüb və yəqin ki, ondan müəyyən "tövsiyyələr" də alıb. Ona görə bu qənaətfəyik ki, bildiyimizə görə, hələ bundan əvvəl Türkiyə prezidenti Putinin təşəbbüsündən xəbər tutan kimi Kiyevə bu tarixi şansdan sülh üçün istifadə etməyi tam zamanında tövsiyə etmişdi.

Məhz Ukrayna ilə Rusiya arasında danışıqlarda Türkiyənin əhəmiyyətli rolu onsuz da yüksək olduğu etiraf edirlər. Məsələn, diqqətə çatdıraq ki, vəziyyəti izləyən amerikalı jurnalistlər artıq Türkiyəni regional lider adlandırmaqdan belə qətiyyən çəkinmirlər. Dünyanın ən məşhir nəşrləri belə bu həqiqəti, bu reallığı çəkinmədən etiraf edirlər. Daha doğrusu etiraf etmək məcburiyyətindədirlər. "Bu həftə Türkiyə və onun prezidenti Rəcəb Tayyib Ərdoğan üçün böyük bir həftə olacağını vəd olunur. İstanbuldakı danışıqlar Ərdoğanın hazırladığı və ABŞ prezidenti Donald Trampın irəli sürdüyü diplomatik dönüşə ümid verir. Türkiyə rəsmiləri uzun illər davam edən gərgin münasibətlərdən sonra ABŞ ilə əlaqələrin inkişaf edəcəyinə və Trampın xarici siyasətə son qoyulması da daxil olmaqla, ikinci müddətə diqqət mərkəzində olacağına ümid edirlər. Ukraynadakı müharibə və Suriyanın beynəlxalq sistemə inteqrasiyası ilə Ərdoğan yenidən regional lider kimi ortaya çıxır", deyə "Bloomberg" nəşrində qeyd olunur və bu o deməkdir ki, artıq Türkiyə və qardaş ölkə lideri həqiqətən də bütün dünyada regional lider olaraq qəbul edilməkdədir.

### Türkiyənin tənzimləmədə rolu və beynəlxalq miqyasda çəkisi etiraf edilir

Qeyd edək ki, İstanbulda Rusiya-Ukrayna danışıqlarının bərpası ilə paralel olaraq, Donald Trampın Fars körfəzi ölkələrinə Yaxın Şərq turu baş tutub, və o, Suriyanın yeni lideri Əhməd Əl-Şara ilə də görüşüb, ona qarşı sanksiyaları ləğv edib ki, bu da Ərdoğanın köməyi ilə baş verib. Bir çox dünya miqyaslı nəşrlərin qeyd etdiyinə görə, Tramp Suriya liderini Suriyanın yeni hakimiyyətinin əsas himayədarı kimi hesab edilən Türkiyə prezidenti ilə telefon danışığından sonra qəbul edib. Daha dəqiq desək, bütün dünya miqyasında Türkiyənin yeni rolu və çəkisi etiraf edilir.

Etiraf edilir ki, İstanbul danışıqları məsələsinin müzakirəsi belə Türkiyənin əhəmiyyətini daha da artırıb. İlk olaraq, Rusiya nümayəndə heyəti ilə danışıqdan əvvəl Ukrayna danışıqlar qrupunun Türkiyə və ABŞ Xarici İşlər nazirliklərinin rəhbərləri ilə görüşü özü də çox məqamdan xəbər verir. Xüsusən ondan xəbər verir ki, Türkiyə Rusiya-Ukrayna nizamlanmasında sadəcə danışıqlar platforması deyil, həm də real vasitəçi sayılır.

İstanbuldakı görüşün nəticələri əlbəttə ki, tezliklə özünü göstərəcək. Bunu bütün dünya da müşahidə edəcək. Heç şübhəsiz ki, hamı bu barədə biləcək. Məsələ burasındadır ki, Türkiyə tərəfi görüş və onun nəticələri ilə bağlı nikbindir. Sözsüz ki, bu, təəccüblü də deyil. Etiraf edilməlidir ki, uğur təkcə Rusiya və Ukrayna arasında çoxdan gözlənilən sülhə gedən yol deyil, həm də Ərdoğanın və Türkiyə Cümhuriyyətinin beynəlxalq nüfuzunun əhəmiyyətli dərəcədə artması ilə bağlıdır. Çünki Türkiyənin tənzimləmədə rolu və beynəlxalq miqyasda çəkisi heç bir tərəddüd olmadan etiraf edilir.

***İnam Hacıyev***

# "Azərbaycan öz maraqlarını qlobal səviyyədə təmin etməyə müvəffəq olub"

***"Avropa Siyasi Birliyinin 6-cı sammiti bu dəfə Qərbi Balkanlarda - Albaniyada baş tutdu". Bu sözləri SİA-ya açıqlamasında deputat Nigar Məmmədova deyib. O bildirib ki, "Yeni dünyada yeni Avropa" mövzusuna həsr olunmuş zirvə toplantısına Azərbaycan Prezidentinin də qatılması təsadüfi deyil: "Bu, ilk növbədə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın xarici siyasətində həm Şərq, həm Qərb istiqamətində əldə edilmiş uğurların nəticəsidir.***



MÜNASİBƏT

Məlum olduğu kimi, bu günlərdə dünyanın iqtisadi nəhəngi olan Çinlə strateji əməkdaşlıq sahəsində birgə bəyanat imzalandı. Eyni zamanda İran prezidentinin Azərbaycana uğurlu səfəri baş tutdu. İki ölkə arasındakı münasibətlərdə artıq yeni səhifənin açıldığını söyləyə bilərik. Azərbaycanın həm də Avropanın enerji təhlükəsizliyi və alternativ nəqliyyat dəhlizləri baxımdan önəmi artır. Təsadüfi deyil ki, Azərbaycan 10 Avropa ölkəsinə qaz satır, eyni zamanda ölkəmizin üzərindən keçən Qərblə Şərqi birləşdirən Orta Dəhliz üzrə daşımalar da ilbəil artmaqdadır. Regionda Azərbaycanın müsbət mövqeyi olmadan ciddi transregional layihə effektiv icra olunmur, bunu həm region, həm dünya ölkələri, o cümlədən Avropa dövlətləri də anlayır. Eyni zamanda neokolonializmlə mübarizə, Qlobal Cənub ölkələrinə dəstək kimi qlobal təşəbbüslərin müəllifi kimi Azərbaycan öz maraqlarını qlobal səviyyədə təmin etməyə müvəffəq olur. Bütün tərəfdaşlar Azərbaycanın mövcud imkanlarını, təhlükəsiz və dayanıqlı əməkdaşlıq təkliflərini dəyərləndirməyə çalışır. Bununla yanaşı Rəsmi Bakı qlobal məsələlərin həllində həm də vasitəçilik kimi uğurlu təcrübəyə malikdir. Bütün bu keyfiyyətlər Azərbaycanı beynəlxalq siyasi gündəmin müzakirə edildiyi platformalarda əsas iştirakçıya çevirir.

Öz siyasi, iqtisadi və hərbi gücü hesabına ərazi bütövlüyü və suverenliyini bərpa edən Azərbaycanın yeni dünya nizamının formalaşması ilə bağlı öz baxışı var. Xatırlatmaq yerinə düşər ki, Avropa Siyasi Birliyinin 2022-ci ilin oktyabrında Praqada keçirilən toplantısında da ölkəmizlə əməkdaşlığın Avropanın strateji prioritetlərindən biri olduğu xüsusi vurğulanmışdı. Görünən budur ki, Avropa hazırki mürəkkəb geosiyasi şəraitdə özünün dünyadakı nüfuzunun zəifləməsindən narahatdır. Ona görə də etibarlı, proqnozlaşdırla bilən tərəfdaşlara ehtiyac getdikcə artır. Bu xüsusda Azərbaycan ən uğurlu seçimdir" - deyə o, əlavə edib.

***Söylü Ağazadə***

***İqlim dəyişikliyi, kənd təsərrüfatı pestisidləri və ətraf mühit faktorları səbəbindən hər il 40% azalan arılar ekosistem üçün yeri bərpa edilməyəcək qədər vacibdir. Arıların ekosistemdəki əhəmiyyəti Eynşteyn tərəfindən kəşf edilib. Eynşteynə görə əgər bir gün dünyada bütün arılar ölsə, insanlar 4 ildən sonra azalmağa başlayacaq. Səbəbini də belə izah edir: "Arıların yox olması ot yeyən heyvanların azalması deməkdir, onlar azaldığı üçün ətyeyənlər də azalacaq və beləliklə, birdən-birə qida zəncirindən bir halqa kəsiləcək, insanlıq birbaşa zərər görəcək".***



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə " ekologiya və ətraf mühitin mühafizəsi" istiqaməti çərçivəsində hazırlanıb.*





# Arılar və ekosistem: əgər nəsilləri kəsilsə...







Arıçılıq bəşər tarixində min illər boyu mövcud olan və kənd təsərrüfatında mühüm yeri olan sahədir. 1940-cı illərdən etibarən arıların faydaları haqqında araşdırmalar aparıldı, alimlər arıların əhəmiyyəti barədə yazmağa başladı. Arılar Antarktika qitəsindən başqa bütün dünyada mövcuddur. 100-dən çox növü məlum olan bal arıları sayəsində həm insan sağlamlığı, həm də ekosistem qorunur. İnsanlar arı bal, arı mumu, propolis, arı südü, çiçək tozu kimi məhsullardan istifadə etməklə yanaşı arıların tozlandırmadakı fəaliyyəti sayəsində ekoloji cəhətdən sağlam bol kənd təsərrüfatı məhsulları əldə ediblər.

Arı ailələrinin azalması Avropada hələ 1960-cı illərdə müşahidə edilib. Lakin 1998-ci ildən başlayaraq bu azalma gözəçarpan dərəcədə sürətlənib. Belçika, Fransa, Almaniya, İtaliya, Niderland və Böyük Britaniyada bu fenomen daha çox müşahidə olunub. Arıların sayının azalmasının əsas səbəbi kənd təsərrüfatı pestisidləridir. Belə ki, ağaclara və tarlalara səpilən bu kimyəvi qatqılardan ən çox arılar zərər görür. Doğrudur, bu dərmanlar səpiləndə bitkilərə zərər verən parazitlər ölür, lakin eyni zamanda bizim üçün, ekosistem üçün çox faydalı olan arılar da ölür. Ümumiyyətlə, kimyəvi maddələrin tətbiqi və suyun çirklənməsi bir çox canlılar, o cümlədən insanlar üçün təhlükəlidir.

Kənd təsərrüfatında meyvə-tərəvəz yetişdirilməsi və məhsuldarlığının artırılması üçün ən mühüm şərt təbii ki, tozlanmadır. Bitkilərdə tozlanma çoxalma prosesində mühüm mərhələdir və bitki növlərinin çoxalması, həmçinin genetik müxtəlifliyin təmin edilməsi üçün zəruridir. Tozlanma prosesi bitkilərin çoxalma orqanı olan çiçəklərdən tozcuqların daşınması və digər çiçəklərə ötürülməsi ilə baş verir. Arıların əhəmiyyəti tozcuqların daşınması və digər çiçəklərə köçürülməsi prosesində başlayır.

Arılar koloniyalarının davamlılığını təmin etmək üçün bal istehsal edərkən çiçəklərdən topladıqları polenə ehtiyac duyurlar. Arılar çiçəklərdən tozcuq toplayır, bu prosesdə ayaqlarına yapışan tozcuqları başqa çiçəklərə köçürür, beləcə genetik müxtəlifliyi və çoxalmanı təmin edir. Beləliklə, meyvə və tərəvəzlər böyüyür və ekosistemdə müxtəliflik davam edir.

Arılar kənd təsərrüfatında təbii tarazlığı dəstəkləmək, müxtəlifliyi və keyfiyyəti artırmaq üçün təbiətə mütləq lazımdır. Təbii ki, arılar məhsuldarlığı artırmaqla yanaşı, bitkiçiliyə və dayanıqlı kənd təsərrüfatına da böyük töhfə verirlər. Arının kənd təsərrüfatı sahəsinə olan faydalarını sadalasaq ən birinci faydaları tozlanmadadır. Bu gün dünyada yeyilən hər üç qidadan biri arıların köməyi ilə süfrələrimizə gəlir.

Arılar çiçəkləri tozlandırdıqca kənd təsərrüfatı müxtəlifliyini artırır və müxtəlif bitki növlərinin istehsalını dəstəkləyir. Tozlanmamış meyvə-tərəvəzlərdə aşağı keyfiyyət və səmərəsizlik müşahidə olunur. Arılar sayəsində bitkilərin məhsuldarlığı artır və daha dadlı, həmçinin ekoloji təmiz məhsullar əldə edirik. Arılar təbii tozlanma prosesini həyata keçirərsə kimyəvi mayalanmaya ehtiyac qalmaz. Bu da öz növbəsində kənd təsərrüfatı pestisidlərinin ətraf mühitə verdiyi zərəri azaldır və təbii ehtiyatları qoruyur.

Arılar tozlanma yolu ilə bitkilər arasında genetik material ötürərək yeni bitki növlərinin yaranmasında da mühüm rol oynayır. Bu təbii yeni növlərin yaranması üçün əhəmiyyətli detaldır. Arılar olmasaydı, kənd təsərrüfatı məhsullarının məhsuldarlığı azalardı, bəziləri hətta yetişə bilməzdi. Arılar kənd təsərrüfatının davamlılığı və ərzaq təhlükəsizliyində mühüm rol oynayır.



Arılar bir kilo bal istehsal etmək üçün təxminən 2 milyon çiçəkdən polen toplayır. Bu da o deməkdir ki, ekoloji tarazlıqda tozlanmaya inanılmaz bir fayda verirlər. Çiçəkdən çiyəyə qonduqca bitki toxumlarının yayılmasını təmin edən arılar ağacların çiçəklərini meyvəyə çevirirlər, tərəvəz və bitki məhsuldarlığını artırırlar, ot yeyən heyvanların qidalarını təmin edirlər. Arılar yox olarsa, ot yeyən heyvanlar yoxa çıxacaq və ot yeyən canlılarla qidalanan digər canlıların populyasiyaları da zaman keçdikcə azalacaq.

Onların öz danışıq və hərəkət dili var. Məsələn, arılar bəlli rəqs hərəkətlərini edərək öz koloniyalarına tapdıqları qida mənbəyinə olan məsafəni və ərazidəki təhlükələri bildirirlər. Saniyədə 270 dəfə qanad çırpa biləcək qədər mükəmməl yaradılan bu canlıların bir ailəsində 60 minə qədər arı olur. Bal pətəkləri ana arılar tərəfindən idarə olunur və ana arılar uça bilmirlər. Ana arı xəstələndikdə, pətəkdəki digər arılar onu sağaltmaq və qorumaq üçün ətrafında bir dairə təşkil edirlər, qayğısına qalırlar, eynilə insanların xəstə ailə üzvünə yardım etməsi kimi.

Arıların 100 milyon il əvvəl var olması barədə araşdırmalar var. Yəni onların Yer kürəsində bəşəriyyətdən təxminən 700 min il əvvəl mövcud olduğu sübut edilib. Arılar insanların yeyə biləcəyi tərkibdə qida istehsal edən yeganə həşərat növüdür. Hər arı ailəsinin özünəməxsus qoxusu var və onlar öz koloniyalarını bu qoxuları təqib edərək tapırlar. Arılar çiçəklərdən bal toplamaq üçün 170 qoxu reseptorunun hamısından fəal şəkildə istifadə edirlər. Onlar bir kiloqram bal əldə etmək üçün 2 milyon çiçəkdən polen əldə edirlər. Bal arılarının cəmi 5 gözü var.

Arılar dünya ekosisteminin ən vacib tərkibi kimi qorunmağa ehtiyacı olan və həyatımızda böyük əhəmiyyət kəsb edən canlılardır. Arıların təbiətdəki tarazlıqdakı əhəmiyyətini qida zəncirindəki mühüm vəzifələrindən başlayaraq zərərli orqanizmlərə nəzarət, biomüxtəlifliyin qorunması və canlı təbiətin dəstəklənməsi kimi ümumiləşdirmək olar. 2017-ci ildən etibarən BMT-nin Baş Assambleyasının İkinci Komitəsinin qərarı ilə mayın 20-si Ümumdünya Arılar Günü kimi qeyd olunur. Bu günün təsis edilməsindəki əsas məqsəd bal arılarının nəslinin kəsilməsi probleminə diqqəti cəlb etmək, onların əhəmiyyəti barədə, həmçinin onları necə qorumaq barədə əhalini məlumatlandırmaqdır.

***Lalə Mehralı***

SON SƏHİFƏ

SƏS

20 may 2025-ci il

# DİQQƏT: İnsanlar arasında yeni virus yayılıb?



*"Ümumiyyətlə yaz və payız aylarında gördüyümüz fəsil dəyişkənliyi, iqlim dəyişikliyi insan orqanizmində immunoloji bir hipershəssalığa bəzən də immunosuppressiv vəziyyətlərə gətirib çıxarır. Bu da özünü daha çox havadamcı yolu ilə keçən üst tənəffüs yollarının virus infeksiyalarına qarşı yatqınlıqla göstərir və nəticədə bu virusa yoluxanların sayı artmış olur". Bu sözləri SİA-ya açıqlamasında həkim terapevt Sübhan Hacıyev deyib.*



*Həkim detalları açıqladı*

Sübhan Hacıyev sözlərinə belə davam edib: "Bu virus infeksiyaları yeni deyil. Yeni qrip virusu, influenza, paraqrip adına virus, adenovirus ki bunlar üst tənəffüs yollarında burun axması, burun tutqunluğu, boğaz ağrısı, boğazda qıcıqlanma, hərarətin artması, ümumi halsızlıq, işdahsızlıq, baş ağrısı kimi, əzələ ağrısı kimi simptomlarla özünü biruzə verir. Bu simptomlar adətən bir gündən yeddi günə qədər davam edir. Əgər ilk üç gün ərzində orqanizmin immün sistem tərəfindən bir tam olaraq sağalmaya gətirib çıxaran vəziyyət müşahidə olunmursa, yeni immün sistem bunun üsdəsindən gələ bilmədiyi üçün artıq həkimə müraciət etmək lazımdır. Bundan sonrakı üst tənəffüs yolunda olan virus yükü aşağı tənəffüs yollarına düşərək bronxit, pnevmoniya kimi və digər ağır infeksiya xəsdəlikləri fəsatlaşmasın.

Ev şəraitində insanlarımız bu halları özlərində müşahidə etdikləri zaman tövsiyyə edərdim ki, ümumiyyətlə 38.5 dərəcədə olan qızdırmanın ilk günlərdə qətiyyən salmasınlar. Çünki, bu qızdırma lazımdır ki, insanlarda immün sisteminin aktivliyini ayaqda saxlayan B və T hüceyrələri daha da aktivləşsin. Bundan sonra bol- bol maye qəbil etsinlər, vitamin C, D, sink, selen kimi mikro elementlərdən istifadə etsinlər. Daha sonra isə istirahət rejiminə üsdünlük versinlər.

Vurğuladığım kimi üç gündən daha çox davam edən simptomlarda isə həkimlərə müraciət edərək müalicə olunmalıdırlar, öz başlarına müalicə etməsinlər. Böyük bir yanlışlıqla virus infeksiyaları zamanı insanlarımız birbaşa aptekə müraciət edərək öz başlarına antibiyotik alıb isdifadə edirlər bəzən də tablet, indeksiyon formada. Ümumiyyətlə, bilmək lazımdır ki, dünyada elə bil antibiotik olmasın ki, virusa təsir gösdərməsin. Ümumiyyətlə, antibiotik bakteriyaları məhv etmək üçündür, virusları deyil. Bu zaman biz özümüzü daha da ağrılaşdırmış oluruq".

**Ayşən Vəli**

## ELAN

**Bakı Texniki Kollec tərəfindən Mirzəbala Məmmədov Əlibala oğluna verilmiş tələbə bileti itirildiyi üçün etibarsız sayılır.**


# "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

**1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544**
**2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694**
**3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969**
**4. Pressainform MMC – 0125115191, 0504560835, 0553156002**
**5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343**
**6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343**
**7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898**
**8. Ziya LTD – 0124977696, 0503067744**

**1 nüsxə 1 aylığı 13.20 AZN**
**6 aylıq 79.20 AZN**
**1 illik 158.40 AZN**

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# 2 gündə bank kartlarından 15 min manat oğurlanıb..

***Həftəsonu 15 min 770 manat vəsait vətəndaşların bank kartlarından oğurlanıb. SİA xəbər verir ki, bu barədə Daxili İşlər Nazirliyi (DİN) məlumat yayıb. Bildirilib ki, bank kartının üzərindəki CVV/CVC, SMS vasitəsilə göndərilən OTP kodları məxfi məlumatlardır:***



"Bu məlumatlar naməlum şəxslərə verildiyi halda hesabınızda olan pullar, yaxud pul yoxdursa, kredit formasında Sizə zərər vuracaqlar. Mayın 17-də və 18-də ayrı-ayrı vətəndaşların müxtəlif kiber üsulla 9800, 1586, 1012, 999, 850, 790, 210, 200, 170, 73, 40, 40 manat pul vəsaitləri bank kartlarından oğurlanıb".

DİN bir daha vətəndaşlara şübhəli zənglərdən gələn cəlbedici qazanc, sığorta, viza işləri, bank hesablarının möhkəmləndirilməsi, mədaxil üzrə ödənişlərlə əlaqəli təkliflərə diqqətlə yanaşmağı tövsiyə edib: "Naməlum zənglərlə, mesajlarla danışıq, yazışma aparılmamalıdır, dərhal bloklanmalıdır".

# Yenə "Prius", yenə qəza...

***Bakıda ölümlə nəticələnən yol-nəqliyyat hadisəsi baş verib. Hadisə paytaxtın Nəsimi rayonu, Həsən Əliyev küçəsi, 58 ünvanında baş verib. Sadəddin Əjdər oğlu Ağakişiyev etibarnamə əsasında idarə etdiyi "Toyota Prius" markalı, 77 KZ 106 dövlət qeydiyyat nişanlı avtomobil ilə hərəkətdə olarkən Samir Sabir oğlu Məmmədovun idarə etdiyi "Minsk" markalı mopedlə toqquşub.***



Nəticədə mopeddə olan sərnişin Əşrəf Nəsrəddin oğlu Mirzəyev almış olduğu müxtəlif dərəcəli bədən xəsarətlərindən xəstəxanada ölüb. Fakta görə cinayət işi başlanıb.


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3000**